www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28-29 noyabr 2015-ci il Şənbə № 265 (6293) Qiymət 40 qəpik

**Xəbər**

## Hacıqabulda kişi özünü və arvadını öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Nardaranda həlak olan polislər Fəxri Xiyabanda dəfn edildi




Törənə nazirlər də qatıldı; əməkdaşlarımız qəsəbədəki son durumdan yazır

yazısı səh.7-də

### İfşa olunan MTN generallarının baş prokuroru devirmə planları - deşifrə

yazısı səh.3-də

### Azərbaycan Türkiyə ilə Rusiya arasında vasitəçi ola bilər

yazısı səh.6-da

### Rusiyanın Azərbaycana verdiyi təkliflərin arxasında duran niyyətlər...

yazısı səh.11-də

### Putinin deputatı keçmiş sovet respublikalarını ələ keçirməyə çağırdı

yazısı səh.8-də

### Kənd təsərrüfatına 40 milyon dollar kredit ayrılır...

yazısı səh.12-də

### "AST Telman"dan sonra Mənsimov da müflis olarsa...

yazısı səh.6-da

### Düyünün 5 növünün eksperimenti keçirildi, nəticəsi isə...

yazısı səh.15-də

### Müxalifət dialoq təşəbbüsündə israr edir

yazısı səh.10-da

### İlginc intihar hekayələri və onların səbəbləri...

yazısı səh.13-də

### Goranboyda dəhşətli avtoqəza; 4 ölü

yazısı səh.14-də

### Hökumət qışa necə hazırlaşır...

yazısı səh.12-də

### Sumqayıt sakinini qoç vurub öldürdü

yazısı səh.14-də

# "Qara Kəmər"in qara sirləri açılır

## HACI MƏMMƏDOVUN İŞİNDƏ ŞOK GƏLİŞMƏ - "ÖMÜRLÜK"DƏ YATAN GENERAL HƏBSDƏN ÇIXA BİLƏR

Həbsdəki qanqsterin bacısı "Yeni Müsavat"a sensasion müsahibə verib; "Hacı nə bilirsə, açıb deyəcək, hər şey ortaya çıxacaq"; məşhur arestantın istintaqı yenilənir; **"içəri"dən xəbər göndərib:** "Zakir Nəsirov günahsızdır, azad olunmalıdır"

yazısı səh.5-də



# Kremlin Ankaraya qarşı yeni əsəb savaşı - Bakı da oyuna qatılır (?)

Rusiyanın Türkiyəyə qarşı informasiya müharibəsini genişləndirmək cəhdlərinin təhlükəli pərdəarxası; Moskvanın yaxın hədəfində iki qardaş ölkənin arasını vurmaq planı da var...

yazısı səh.8-də



Cahangir Hacıyev

*Adil Hüseynov:*

### "318 milyon manatı Cahangir Hacıyevin göstərişi ilə oğurlamışam"

yazısı səh.2-də



### Mövlud Çavuşoğlu Bakıdan Moskvaya mesaj verdi

yazısı səh.9-da



*Elxan Şahinoğlu:*

### "Cəmiyyətin də sifarişi budur ki, biz Türkiyənin yanında olmalıyıq"

yazısı səh.11-də



# Azay Quliyev: “Silahlı müqavimət göstərənlər ən sərt qanunlarla mühakimə edilməlidir”

**“Hamı bilməlidir ki, dövlətçiliyimizə qarşı atılan istənilən addım cavabsız qalmayacaq və ən sərt şəkildə bunun qarşısı alınacaq”. Bunu millət vəkili Azay Quliyev jurnalistlərə Nardaran hadisələrinə münasibət bildirərkən deyib.**

A.Quliyev qeyd edib ki, Azərbaycanda bütün sahələrdə əldə olunan inkişafın təməlində möhkəm dayaqlar üzərində qurulan ictimai-siyasi sabitlik dayanır: “Dünyanın müxtəlif yerlərində, o cümlədən Yaxın Şərqdə davam edən vətəndaş müharibəsinin fonunda Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi Azərbaycan sabitlik və azadlıq adasıdır. Tarix boyu dini tolerantlığın mövcud olduğu ölkəmiz bu gün də dünyada ənənəvi və unikal multikulturalizm məkanı kimi tanınır və təqdir olunur”.

**Deputat bildirib ki, ancaq təəssüflər olsun ki, xarici dairələrin məkrli niyyətlərinin alətinə çevrilən müəyyən qrup şəxslər dövlətçiliyimizin dayaqlarının sarsıdılmasına çalışırlar:** “Noyabrın 26-da Sabunçu rayonunun Nardaran qəsəbəsində Daxili İşlər Nazirliyinin keçirdiyi xüsusi əməliyyat zamanı radikal dini ekstremist qrupun üzvləri hüquq-mühafizə orqanlarına silahlı müqavimət göstəriblər, 2 polis əməkdaşı həlak olub. "Din" pərdəsi altında hakimiyyət nümayəndələrinə qarşı itaətsizlik nümayiş etdirən, qanunsuz silahlı dəstə yaradan bu qrupun məqsədi ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq və xaos yaratmaqdır. Sosial, dini, siyasi mənsubiyyətindən asılı olmayaraq hüquq-mühafizə orqanlarına qarşı silahlı müqavimət göstərən bütün şəxslər dövlətin ən sərt qanunları ilə mühakimə edilməli, ictimai-siyasi sabitliyin pozulmasına imkan verilməməlidir".

**Azərbaycanda din-dövlət münasibətlərinin kifayət qədər aydın və uğurlu hüquqi, ictimai əsaslara söykəndiyini vurğulayan A.Quliyev konstitusiya quruluşunun zorakılıqla dəyişdirilməsinə cəhd edən radikal dini qrupların heç bir halda ölkə dindarlarının mövqeyini ifadə etmədiyini söyləyib:** “İnanıram ki, çoxsaylı ilahiyyatçılar və vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən də fəaliyyəti haqlı olaraq pislənilən bu cür qrupların bütün üzvlərinin ifşa edilərək məsuliyyətə cəlb olunması üçün zəruri addımlar atılacaq. Azərbaycanda bütün inanclı insanlar indiyədək olduğu kimi bundan sonra da dövlətçiliyimizin ətrafında sıx şəkildə birləşəcək və bu cür ekstremist qruplara qarşı kəskin etirazlarını bildirəcəklər”.

❑ **M.MAHRIZLI**

bakcell

# “Bakcell”in baş texniki direktoru “İlin texniki direktoru” mükafatının finalçıları arasında

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti “World Communication Awards” (Ümumdünya Kommunikasiya Mükafatı) adlı mötəbər mükafatda “İlin texniki direktoru” kateqoriyası üzrə 7 finalçı arasında şirkətinin baş texniki direktoru Yiğit Berktaşın adının yer alması ilə qürur duyur.**

**“Total Telecom” təşkilatı tərəfindən təşkil olunan “World Communication Awards” dünya telekommunikasiya sahəsində təşkil olunan ən nüfuzlu mükafatlardan biridir. Telekommunikasiya sahəsinin təntənəli tədbirlərindən olan təqdimetmə mərasimində şirkətlər tərəfindən müvafiq sahədə innovasiyaların tətbiqi, əldə edilən nailiyyətlər və yüksək fəaliyyət nəticələri qiymətləndirilir və dünyaya tanıdılır.**

**Mükafat qalibinin adı dekabrın 1-də İngiltərənin London şəhərində yerləşən Uembli stadionunda keçiriləcək və telekommunikasiya sənayesində çalışan 5000-dən artıq rəhbər işçinin iştirak etdiyi təntənəli şam yeməyində açıqlanacaq.**

**Son bir neçə il ərzində «Bakcell» şirkəti öz şəbəkəsinin inkişaf etdirilməsinə və genişləndirilməsinə böyük investisiyalar yatırıb. Şirkətin Müştəri Təcrübəsinin İdarə Edilməsi sistemi qoyulan investisiyaları düzgün planlaşdırmaq və müştəri məmnuniyyətinin artırılması istiqamətində prioritet sahələri müəyyən etmək üçün əsas alət kimi xidmət edir. Bu platforma vasitəsilə xidmət keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş önləyici tədbirlər görmək imkanına malik olan «Bakcell» şirkəti daha yüksək keyfiyyətli xidmətlər göstərir və planlaşdırılmış marketinq kampaniyalarını həyata keçirir. Data trafikinin idarə edilməsi sisteminə qoyulan investisiya müştəriyönümlü, həqiqətən fərdiləşdirilmiş data məhsulları, yeni tariflər və innovativ xidmətlər təqdim etmək üçün geniş imkanlar yaradır. Bu, «Bakcell» şirkətinin gələcəyinə və sabahın informasiya xidmətlərinə qoyulan bir sərmayədir. Bu və başqa layihələr «Bakcell» şirkətini Azərbaycanın telekommunikasiya sahəsində texnologiya liderinə çevirir.**

**Finalçılar və mükafatlar haqqında daha ətraflı məlumatı bu link vasitəsilə əldə edə bilərsiniz: http://www.totaltele.com/view.aspx?C=0&ID=491755**

# AŞ PA missiyası: “Parlament seçkiləri azad, ədalətli və demokratik seçkilərə doğru növbəti addım idi”

**“Azərbaycanda keçirilən parlament seçkiləri azad, ədalətli və demokratik seçkilərə doğru olan növbəti addım idi və seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirirdi”.**

APA-nın xəbərinə görə, bu barədə AŞ PA müşahidə missiyasının Azərbaycanda keçirilmiş parlament seçkilərinin nəticələrinə dair qurumun Daimi Komitəsinin Sofiyada keçirilən iclasında təsdiqlənən yekun məruzəsində deyilir.



Yordi Çuklanın rəhbərlik etdiyi nümayəndə heyətinin hazırladığı məruzədə seçki günü ölkədə sakit və sülhsevər atmosfer olduğu və Seçki Məcəlləsinin sistematik pozulması hallarının baş vermədiyi qeyd edilib. Lakin bəzi seçki məntəqələrində qrup şəklində səsvermə və seçki bülletenlərinin topa şəklində qutulara atılması halları baş verib.

Elektoral məsələlərlə yanaşı, missiya təəssüflə bildirib ki, Azərbaycanda insan haqları sahəsində hələ də ciddi narahatlıqlar qalmaqdadır, xüsusən də bir çox insan haqları müdafiəçiləri və QHT fəalları müxtəlif ittihamlar əsasında həbs ediliblər.

Məruzədə Azərbaycan hakimiyyətinə təcili şəkildə insan haqları ilə bağlı vəziyyəti düzəltmək və seçkilərdən sonra ölkənin demokratik inkişafının davam etdirilməsinə dair çağırış edilib.

Missiya Azərbaycanı Venesiya Komissiyasının müvafiq tövsiyələrini nəzərə almağa da səsləyib.

## Gəncədə Nardaran hadisələrinə dəstək verən şəxslər polislərə xəsarət yetiriblər

**Gəncədə Nardaran hadisələrinə dəstək verən şəxsdən silah-sursat götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, noyabrın 26-da Gəncə şəhər sakini Sabir Əliyev Nardaran qəsəbəsində baş vermiş hadisə ilə əlaqədar şəhərin Təbriz və Ə.Məmmədov küçələrinin kəsişməsində “Müsəlman Birliyi” adlı hərəkata dəstək məqsədi ilə çağırışlar etdiyi üçün Nizami (Gəncə) Rayon Polis İdarəsi əməkdaşları tərəfindən tutulub. Ondan “TT” markalı tapança, 8 ədəd patron, 1 ədəd patron darağı və 3,215 qram heroin götürülüb. APA-nın əldə etdiyi məlumata görə, ilahiyyatçı Tale Bağırovun tərəfdarı olan həmin şəxs Gəncə Şəhər Baş Polis İdarəsinin əməliyyatçısı Oqtay Orucova xəsarət yetirib.**

DİN-in yaydığı digər məlumata görə, noyabrın 26-da Gəncə şəhər sakini Ruzi İsmayılov Nardaran hadisələri ilə əlaqədar “Müsəlman Birliyi” adlı hərəkatın üzvlərinə dəstək məqsədi ilə Şah Abbas məscidinin qarşısına gəlib. Bununla əlaqədar R.İsmayılov evinin qarşısında tutularkən üzərində olan qumbara ilə Gəncə ŞBPİ-nin əməkdaşı, polis mayoru Oqtay Orucovun baş nahiyəsindən xəsarət yetirərək qumbaranı partlatmağa cəhd göstərib.

R.İsmayılov tutulub və ondan 1 ədəd “F-1", 1 ədəd "RQD-5" qumbaraları və 14 qram heroin götürülüb.

## Akademik Tofiq Hacıyev dəm qazından zəhərlənib öldü

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Tofiq Hacıyevlə vida mərasimi bu gün saat 12.00-da akademiyanın akt zalında keçiriləcək. Bu barədə APA-ya AMEA Nəsimi adına Dilçilik İnstitutundan məlumat verilib.**

Bildirilib ki, mərhum akademik II Fəxri Xiyabanda dəfn olunacaq. Qeyd edək ki, akademik Tofiq Hacıyev dəm qazından zəhərlənərək dünyasını dəyişib. Onun həyat yoldaşı da qazdan zəhərlənib və xəstəxanaya yerləşdirilib.



# Hərbi-hava qüvvələrimiz hazırlıq vəziyyətinə gətirildi

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qüvvə və vasitələri təlim çərçivəsində hazırlıq vəziyyətinə gətirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, döyüş şəraitinə maksimal yaxın vəziyyətdə qəfil həyəcan siqnalı ilə qaldırılan şəxsi heyətin döyüş qabiliyyəti, praktiki bacarığı, eləcə də döyüş vasitələrinin tətbiqi imkanları yoxlanılıb.

Təlim mərkəzində Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən döyüş tapşırığının yerinə yetirilməsi “Osa” 9A33BM-3 zenit-raket komplekslərinin istifadəsi ilə həyata keçirilib.

Şəxsi heyət hava məkanını pozan şərti düşməni aşkarlayaraq izlənməyə götürüb və təlim-döyüş tapşırığının yerinə yetirilməsi zamanı kiçik həcmli, aşağı yüksəklikdə, qrup halında uçan hədəflər raket zərbələri ilə dərhal məhv edilib.

Təlimdə qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

# Putin Ərdoğanın görüşmək istəyini qəbul etməyib

**Rusiya prezidenti Vladimir Putin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın görüşmək istəyini rədd edib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya prezidentinin köməkçisi Yuri Uşakov deyib. Y. Uşakov bunun səbəbini Ankaranın Rusiyaya məxsus "Su-24" təyyarəsinin vurulmasına görə üzr istəməməsi ilə əlaqələndirib: “Təyyarə insidentindən sonra Türkiyənin üzr istəməkdə istəksiz olduğunu görürük”.**

O, Putinin Parisdə keçiriləcək beynəlxalq iqlim konfransı çərçivəsində İsrail baş naziri Benyamin Netanyahu və Almaniya kansleri Angela Merkellə görüşəcəyini bildirib.

# Rusiya Türkiyə ilə vizasız rejimi dayandırır

**Rusiya 2016-cı il yanvarın 1-dən Türkiyə ilə vizasız rejimi dayandırır. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib. “Rusiya rəhbərliyi tərəfindən iki ölkə arasında olan vizasız rejimin dayandırılması qərara alınıb. Bu qərar gələn il yanvarın 1-dən qüvvəyə minəcək”, - deyə S. Lavrov suriyalı həmkarı Valid Muallimlə birgə keçirdiyi mətbuat konfransında bildirib.**

Nazir əlavə edib ki, bu uydurma təhlükə deyil, əksinə, bu təhlükələr olduqca realdır: “Biz tam məsuliyyətlə bunu deyirik”.



## Əli Həsənova ağır itki üz verdi

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənova ağır itki üz verib. Ötən gecə Ə. Həsənovun anası Səfiyə xanım dünyasını dəyişib.**

Mərhumə ilə vida mərasimi dünən saat 15.00-da Əhmədli qəsəbəsindəki evində keçirilib.

Allah rəhmət eləsin!

## “318 milyon manatı Cahangir Hacıyevin göstərişi ilə oğurlamışam”

**“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Dubay filialının həbsdə olan müdiri Adil Hüseynovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 4 ay artırılıb.**

Nərimanov Rayon Məhkəməsinin qərarı ilə onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 2 mart, 2016-cı il tarixinə qədər uzadılıb.

Bu ilin may ayında həbs edilən A.Hüseynov “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Dubay filialının rəhbəri olub.

A.Hüseynov istintaqa ifadəsində bildirib ki, o, filial rəhbəri olarkən Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsində çalışmış Cahangir Hacıyev, İdarə Heyəti sədrinin birinci müavini Emil Mustafayev və digər rəhbər şəxslərin göstərişi ilə hərəkət edib.

O, 318 milyon manat vəsaitin xərclənməsində birbaşa rəhbərlik tərəfindən göstəriş aldığını bildirib. Kreditlərin verilməsinə isə birbaşa həmin vaxt İdarə Heyəti sədrinin birinci müavini vəzifəsində çalışmış Emil Mustafayevin şəxsən özü nəzarət edib.

A.Hüseynov 318 milyon manat pulu dələduzluq yolu ilə ələ keçirməkdə ittiham olunub. Həmin məbləğin böyük bir hissəsinin Dubayda iki zavodun tikilişinə sərf edildiyi bildirilir.

Qeyd edək ki, A.Hüseynova Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi il cinayət işi açılıb. O, Hacı Məmmədovun dəstəsi tərəfindən qətlə yetirilmiş polkovnik Fətulla Hüseynovun oğludur.

## Başsağlığı

**Rauf Arifoğlu və “Yeni Müsavat” qəzetinin kollektivi Əli Həsənova anası Səfiyə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İfşa olunan MTN generallarının baş prokuroru devirmə planları - deşifrə

## Vergilər Nazirliyinin əməkdaşları sabiq idarə rəisi Vidadi Məmmədovun əməllərindən yazır; qurumda baş verənlərlə bağlı şok məlumatlar

**Vergilər Nazirliyinin bir qrup əməkdaşı nazirlikdə baş verənlərlə bağlı redaksiyamıza məktub yollayıb. Məktubda yer alan məqamlar Vergilər Nazirliyin "mətbəx"ində baş verən xoşagəlməz olayları əhatə edir. Həmin məktubu təqdim edirik: "Bir neçə vaxt əvvəl mətbuatda Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində (qısa olaraq VCAD) baş verən çirkin və iyrənc hadisələr barədə məlumatlar verilmişdi. Onlardan bəziləri işçilərin hüquq pozuntuları ilə bağlı olub.**

Söhbət VCAD-ın sabiq rəisi Vidadi Məmmədov və Fazil Məmmədovun hazırda müşaviri və həmçinin qayını olan Namiq Quliyevdən gedir. Vidadi Məmmədov VCAD-dan uzaqlaşdırılsa da, faktiki olaraq yenə departamentə nəzarət edir, ona görə ki, onun bir nömrəli adamı və pulyığanı Elmir Şirinov yenə iş başındadır. Vidadi Məmmədovun adamları Tariel Tağıyev, *(Vidadi Məmmədovun ikinci ali təhsil aldığı hüquq fakültəsində qrup yoldaşı)* şöbə rəisləri Nəriman Məcidov, Miri Bağırov, idarənin rəis müavini Nofəl Əhmədov müstəntiq vəzifəsində işləyirlər. Bu şəxslərin hansı səbəbdən orda qalması bəlli deyil, ona görə ki, ən azından onlar bütün hadisələr barədə məlumatları Vidadi Məmmədova çatdırırlar və onun orada istintaq edilən bütün işlərdən xəbəri var. Onun xəbərdar olması isə çox təhlükəlidir, ümumən sahibkarlar üçün əngəldir.

Onu da bildirək ki, Vidadi Məmmədovun oğlunun qayınatası general Sübair Qurbanov Milli Təhlükəsizlik Nazirliyinin İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi idi və bir neçə gün əvvəl həbs edilib.

Vidadi Məmmədov iş adamlarının dosyelərini general Sübair Qurbanova verirdi və onların sonradan başlarına gələn hadisələr hamıya məlumdur.

Bu, daim belə olub. Sadəcə olaraq, bunu əvvəllər həmin təşkilata hörmət olaraq yazmırdıq. İndi isə vəziyyət dəyişib, ona görə məlumatı çatdırırıq.

Vidadi Məmmədov barədə bir məlumat da var ki, o hətta öz xaricə gediş-gəlişini də sahibkarlar hesabına həyata keçirib. Belə ki, 2015-ci ilin mart ayında Vidadi Məmmədov ailəsi ilə birgə Ankaraya getmiş və orada Vidadi Məmmədov kimi yox, "Vidadi Qoca" adı altında qalıb. Otelin xərclərini isə "Koza" şirkəti ödəyib. "Koza" şirkətinin isə Türkiyədə paralel dövlət adlandırılan hörgütə aid olması hamıya məlumdur.



Vidadi Məmmədov



Namiq Quliyev

Həmçinin Vidadi Məmmədovun şirkəti də mövcuddur. Həmin şirkət müxtəlif kompüter avadanlıqları gətirir. Şirkətdə əsasən xaricilər çalışır. Hazırda Vidadi Məmmədovun 30-40 milyon dollar vəsaitinin olduğu bilinir. Bu pullar Vidadi Məmmədov tərəfindən son beş ildə əldə olunub.

Vidadi Məmmədova "krışalığı" isə Fazil Məmmədovun digər yaxın qohumu, hazırda vergilər nazirinin müavini olan Namiq Əliyev edir. Namiq Əliyev açıq-aşkar Vidadi Məmmədova deyirdi ki, o baş prokuror olacaq və onu Vergiyə Nəzarət İdarəsinə rəis qoyacaq. Onda hər şey başqa cür olacaq. Bu, əlbəttə ki, Eldar Mahmudovun planı idi. Eldar Mahmudov heç zaman Zakir Qaralovu istəməyib. Çünki Zakir Qaralov Eldar Mahmudova çox işlərində mane ola bilirdi. Eldar Mahmudov Fazil Məmmədovun yaxın qohumu və müavini Namiq Əliyevlə plan qurmuşdurlar, Eldar Mahmudovun işdən çıxarılması planları pozdu. Bu məsələni ancaq Fazil Məmmədov və ona yaxın çox az sayda adam bilirdi. Məsələ bundadır ki, Zakir Qaralov Vergilər Nazirliyinin hər istədiyi iş adamının cinayətə cəlb olunması üçün sanksiya vermirdi. Ona görə də qərara alınmışdı ki, Zakir Qaralovu devirib yerinə Namiq Əliyevi qoydursunlar.

Bunu Vidadi Məmmədov yaxşı xatırlayır. Həmişə deyirdi ki, mən yığılan pulları nazir müavini Namiq Əliyevə verirəm, o isə pullarla nə edir, mənlik deyil.

Fazil Məmmədovun qaynı və müşaviri olan Namiq Quliyevə gələk. Namiq Quliyev artıq naziri belə vecinə almır. Necə olur ki, Namiq Quliyevin iki kabineti olur? Biri nazirlikdəki əsas binada, digəri isə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində. Namiq Quliyev Fazil Məmmədovun müşaviri olmasına baxmayaraq nazirlikdə oturmur. Çox vaxtını Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində keçirir. Çünki əsas pulun yığıldığı yer oradır. Nazir Fazil Məmmədov qaynına demək olar hər həftə deyir ki, gəl nazirlikdə otur. O isə heç naziri də dinləmir. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində özü üçün kabinet açıb və orada oturur. Fazil Məmmədovun qohumları Namiq Quliyev və Namiq Əliyev Vergilər Nazirliyindən sanki xüsusi şirkətləri kimi istifadə edirlər".

**Məktubda Vidadi Məmmədovun evində baş vermiş oğurluq haqda da yazılır:** "Onun bağbanı tərəfindən 1 milyon nəğd pul aparılıb. Bu barədə, sadəcə olaraq, araşdırma aparılmadı, məsələ gizli saxlanıldı. Ümumiyyətlə, Vidadi Məmmədov eynilə MTN-in üslubunda işləyib. Ona görə ki, Vidadi Məmmədov əvvəllər "OBXSS" işçisi olmuş Eldar Mahmudovun işçisi olub. Hazırda Vidadi Məmmədovu bir neçə şirkət rəhbəri axtarır. Lakin Vidadi Məmmədov onların telefonlarına cavab vermir. Ona görə ki, həmin şəxslər ona verdikləri pulu göstərilməmiş xidmətə görə geriyə istəyir. Lazım olduqca Vidadi Məmmədov barəsində ətraflı və maraqlı faktlar daim veriləcək".

**Məktubda sabiq müdafiə naziri Səfər Əbiyevin oğlunun Vergilər Nazirliyindəki fəaliyyətinə da toxunulur:** "Bir məsələni də qeyd edək ki, sabiq müdafiə naziri Səfər Əbiyevin oğlu Osman Əbiyev Vergi Cinayətləri Departamentində rəis müavinidir. Aylıq 3500 manat paket alır. Heç bir iş görmür, ancaq kabinetdə çay içməklə məşğuldur. Doğrudanmı Səfər Əbiyevin oğlu 3500 manat paketə möhtacdır?"

❑ **E.HÜSEYNOV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Şəriət üçün qeyri-münbit şərait



**Xalid KAZIMLI**

**Qohumluq və dostluq münasibətində olduğum bir neçə etiqadlı mömin var. Onlardan ikisi Yardımlı rayonunun Çayüzü kəndində, biri Şirvan şəhərində, biri Xaçmazın Seyidli kəndində, ikisi də Bakıda yaşayır. Əslində mömin tanışlarımız çoxdur, sadəcə, bu yuxarıda qeyd etdiklərim başqa cür insanlardır. Onları əsl möminlərin parlaq nümunəsi hesab edirəm.**

**Birincisi**, qeyd etdiyim adamlar gerçəkdən də əməli-saleh, xeyirxah, halal adamlardır, mərdiməzarlıqla, kin-küdurətlə işləri olmaz.

**İkincisi**, onlar dindar olduqlarını, hər gün ibadətlərini, dini ayinləri icra etdiklərini reklam etməzlər, hər kəlməbaşı dindən, imandan danışmazlar. Sadəcə, adamla oturub söhbət etdikləri yerdə, namaz vaxtı gəlibsə, üzr istəyib ayağa qalxar, "bir azdan qayıdıram" deyib gedər, namaza getdiklərini deməz, qayıtdıqdan sonra "namazımı qıldım, gəldim" deməz, bunu təkəbbür hesab edərlər.

**Üçüncüsü**, bu möminlər öz övladlarını mütləq dindar olmağa sövq etmirlər, bu işi onların öz vicdanına buraxırlar, xanımlarının, qızlarının, gəlinlərinin örtünməsini şərt, yasaq halına gətirməyiblər.

Onlar spirtli içki içməyi heç kəsə tövsiyə etməzlər, amma içənləri də qınamaz, "günahdır" deyə təzyiq göstərməz, "öz işinizdir" deyərlər.

Yəni bu şəxslər dindarlığı, möminliyi sözün birbaşa mənasında hər kəsin şəxsi işi, şəxsi inancı hesab edirlər, dürüst olmağı imandan sayırlar.

Bu dövrdə bu cür mənəvi baxımdan kamil adamların olması gerçəkdən də böyük işdir.

Mən onlarla, xüsusilə də yaşı 80-i adlamış ağsaqqallarla dəfələrlə söhbət etmişəm, dünyaya, siyasətə, dövlətə münasibətlərini öyrənmişəm. Bu ağsaqqallar hələ sovet dövründən namazlarını qılıb, dini ayinlərini icra ediblər və bu fikirdədirlər ki, dövlət, hökumət nə qədər çalışsa belə əsl möminin ibadətinə mane ola bilməz. Biri deyir ki, mən evimdə oturub ibadətimi edir, namazımı qılır, orucumu tuturam, hökumət gəlib mənə nə edə, nə yasağı qoya bilər ki.

Ağsaqqal haqlıdır. Dünyanın ən qəddar hakimiyyəti belə insanın beyninə girib onun əqidəsinə, inancına təsir, təzyiq göstərə bilməz. Hakimiyyətlər yalnız kütləvi dini ritualları yasaqlaya bilər. Bir dindar o toplu ayinlərdə iştirak etməsə möminliyini itirmir, mövsümdən mövsümə dindar olan biri də bütün dini mərasimlərdə iştirak etsə də, dönüb əsl mömin olmur.

Barələrində bəhs etdiyim ağsaqqallar və onlardan çox gənc olan mömin dostlar əmindirlər ki, din və siyasət bir-birindən ayrı olmalıdır, dövlət işlərinə dini qatmaq olmaz.

Bu fikrə etiraz edənlər deyirlər ki, din elə siyasətin özüdür. Keçmişdə siyasi birliklərin, ictimai-siyasi fəaliyyətin olmadığı dönəmlərdə insanları bir araya toplamağın, idarə etməyin yeganə yolu din, məzhəb birgəliyi olub, ancaq müasir dövrdə buna ehtiyac yoxdur. Din yalnız ruhaniyyat, mənəviyyat məsələlərini əhatə etməlidir.

Xristian dünyası bu məsələni təxminən 200 il öncədən çözüb, dini dövlətdən, siyasəti dindən ayırıb və böyük uğurlar qazanıb. Həm bir zamanlar inkvizisiya edamları həyata keçirən və xalqın gözündə bədnam, qorxunc bir dərgaha çevrilən kilsənin reputasiyası zamanla yaxşılaşıb, həm də dövlət institutları inkişaf edərək, hakimiyyət qolları bir-birindən ayrılaraq cəmiyyəti daha effektiv idarə etməyə başlayıb.

Müsəlman dünyası isə hələ çabalayır, dövləti, cəmiyyəti necə effektiv idarə etməyin yollarını arayır və dönüb-dolaşıb dinin, daha dəqiqi, məzhəbçiliyin üzərinə qayıdır.

Hakimiyyət əldə etmək istəyən siyasi qruplar mütləq dini faktordan, məzhəb mənsubluğundan yararlanmağa çalışırlar. Onlar görürlər ki, ən asan yol budur, insanları hədislərlə, Allah xofu və mükafatı ilə bir araya gətirmək mümkündür. Ən pisi odur ki, onlar hakimiyyətə gəlmək üçün dini faktordan müvəqqəti (hakimiyyəti əldə edənə qədər) yararlanmaq fikrində deyillər, onu qazandıqdan sonra daha qorxunc bir sistem - şəriət idarəçiliyi yaratmaq niyyətindədirlər.

Min il əvvəl bəlkə də yeganə yol şəriət qayda-qanunlarıydı. Ancaq siyasət elminin, dövləti, cəmiyyəti idarə etməyə imkan verən fəlsəfi nəzəriyyələrin həyata effektiv tətbiq olunduğu, insanın bütün həyat və iş sferasına aid qanunların gündən-günə təkmilləşdirildiyi indiki dönəmdə şəriət qayda-qanunlarının tətbiqi mümkün deyil. Bu böyük faciələrə, məhrumiyyətlərə, kütləvi qanunsuzluğa, səfalətə yol açar.

Ona görə də teokratik rejim qurmaq üçün insanların dini inancından istifadə etmək yolverilməzdir. Dünyəvi dövlətlər bu tendensiyanın qarşısını qətiyyətlə almağa məcburdur. Çünki bu yolun gülüstana aparmadığını elmli adamların hamısı bilir.

Hansısa şübhəli və gizli qruplarda birləşərək səhərdən axşama qədər siyasət, hakimiyyət söhbət etmək, hansısa məqsədə çatmaq üçün qan-qadaya çağırmaq hələ əsl möminlik deyil və antibəşəri cinayətdir.

Bu cür çağırışların intensiv olduğu ölkələrin adını sayaq: Əfqanıstan, Pakistan, Suriya, İraq, Liviya, Yəmən, Əlcəzair...

Bu siyahıda olmasaq yaxşıdır .

Əgər dövlət strukturları bu sahədə gedən prosesləri vaxtında nəzarət altına götürməsəydilər, vəziyyət bundan qat-qat pis olar, məzhəb savaşı çıxardı. Ancaq indiki durum göstərir ki, bəzi dövlət orqanları, xüsusilə də millətin təhlükəsizliyinə cavabdeh olan qurum öz işinin öhdəsindən lazımınca gəlməyib, ölkəmizi qarışdıra biləcək təmayüllərin qarşısına yaxşı sədd çəkməyib.

Bu dövlətdə yaşaya-yaşaya onun süqutuna çalışmaq, başqa bir ölkənin ağzı ilə danışmaq, həlledici anlarda yadelli qüvvələrə qahmar çıxmaq təkcə milli xəyanət, mənəvi məsuliyyət deyil, həm də cinayət məsuliyyəti yaradır.



# Hacı Tale kimin və nəyin qurbanı oldu?

Azər RƏŞİDOĞLU

**Azərbaycanın öz gerçəkliyi var. Müxalifət və demokratik qüvvələrlə eyni qurumlarda fəaliyyət göstərən inanclı insanlar bu gerçəkliyi dəyərləndirmək zorundadırlar. İfrat radikallıq və marginallıq zərərli tendensiyadır.**

Hacı Tale Bağırzadə həbsxanadan çıxan kimi sərt bəyanatlarla çıxış etməyə başladı. Cavanlığından gələn emosionallıq ona situasiyanı düzgün qiymətləndirməyə mane olurdu. Bəzi media və müxalif qruplar isə onun sosial bazasından bəhrələnmək istəyirdilər.

Bəlli idi ki, Hacı Tale ətrafında tələ qurulur və o, özü də bilmədən bu oyunun iştirakçısı olur. Ən acınacaqlısı odur ki, proseslərdə marginal qruplar əsas qüvvə kimi iştirak etməyə başlayıblar. Müxalifət bəlli çərçivədə hərəkət edir, etiraz elektoratını təmsil edən inanclı insanlar, məsələn, Hacı İlqar İbrahimoğlu kimi dini caməənin önündə olanlar demokratik müxalifətlə bir sıradadır. Bu müstəvidə onları dağıtmaq mümkün deyil. Tale Bağırzadə isə hamıdan kənarlaşmaq və özü meydana çıxmaq istədi. Bunun nəticələri fəsadlı olacaqdı.

Bütün bunlara baxmayaraq, Nardaranda baş verənləri siyasi hakimiyyət daxilindəki qruplararası qarşıdurmanın təzahürü kimi qiymətləndirmək daha düzgün olardı. Son günlər açıq müstəvidə hakimiyyətdaxili savaş gedirdi və bu da istər milli təhlükəsizlik naziri E.Mahmudovun işdən uzaqlaşdırılması, istərsə də nazirlik əməkdaşlarının qalmaqallı həbsində özünü göstərirdi. Bütün bunların fonunda hakimiyyətdaxili qruplardan biri o birinə diş qıcayırdı. Nardaran hadisələri də göstərir ki, hakimiyyətdəki qruplardan biri siyasi elitaya əzələ nümayiş etdirdi. Bir sözlə, hakimiyyətdaxili mübarizədə ölkədəki sabitliyin pozula bilmə ehtimalı da söz konusu idi. Bununla kimin daha güclü olması sualına sanki cavab axtarılırdı.

Proseslər davam edir. Yaxın zamanlarda cəmiyyət daha ağır nəticələrlə üzləşə bilər. Ehtimal etmək olar ki, həbslər və qarşıdurma davam edə bilər. İnsan tələfatı, kimlərinsə həbsi, proseslərə daha ciddi siyasi qurumların və ya dini çevrələrin cəlbi də istisna deyil.

Baş verənlər fonunda bir çox suallar ortaya çıxır. Politoloq Ərəstun Oruclunun sosial şəbəkədə verdiyi suallar əslində "nə baş verdi" sualının cavabıdır. İlham Əliyevin İSESCO Baş Konfransının XII sessiyasının açılışında dini tolerantlıqla bağlı çıxışından 1 saat sonra bu əməliyyat kimə və niyə lazım idi? Bu suala cavab həqiqəti meydana çıxarda bilərdi...

Ərəstun Oruclunun daha bir sualı açıq qalır - əməliyyata qərar verənlər Heydər Əliyevin Nardaranla bağlı siyasətini xatırlayırlarmı?

Prosesin təhlili onu deməyə əsas verir ki, Nardaranda hədəf Hacı Tale deyil, ölkədə sabitliyin pozula biləcəyini nümayiş etdirməkdir. "Əsgər ölümləri" ilə bağlı keçirilən aksiyalar zamanı da belə olmuşdu. Deməli, Nardaranda baş verənlərin pərdəarxasında siyasi elitaya qarşı düşünülmüş təxribat dayanır.

Bundan sonra nə baş verəcək? Nəzərə alsaq ki, Azərbaycanda demokratiya müstəvisi dağıdılıb, insanlar səfalət içində yaşayırlar, radikal islamın siyasi amilə çevrilə biləcəyini də ehtimal edə bilərik. Azərbaycanda demokratik qüvvələrin məhvi çox ağır nəticələr verməkdədir. Hakimiyyətin son illər ərzində din əleyhinə apardığı təqiblər radikal dindarların sayının artmasına rəvac verir. Avropada artıq çoxdan öz həllini tapmış hicab problemi Azərbaycanda hələ də inanclı insanlara baş ağrısı gətirir.

Nəzərə alsaq ki, ölkədə sosial böhran dərinləşə bilər, sosial partlayışların ola biləcəyini də proqnozlaşdıra bilərik. Bu isə yaxın gələcəkdə ölkədə etiraz dalğasının arta biləcəyinin xəbərçisidir. Bu zaman narazılıqlara islamçılar rəhbərlik edə bilərlər, iqtidar üçün isə onlarla dil tapmaq asan olmayacaq.

Belə getsə, Azərbaycanda da əsas şüar kimi "Allahu Əkbər" çağırışlarının səslənə biləcəyini artıq çoxu ehtimal edir. "Allahu Əkbər" şüarına qarşı mübarizənin səmərəsizliyi Yaxın Şərqdə bir daha sübuta yetirildi. Onu da unutmaq olmaz ki, gələn ilin əvvəllərində ölkədə iqtisadi böhran proqnozlaşdırılır. Bu isə narazı elektorata islamçıların rəhbərlik edə biləcəyi fikrini gücləndirir...

# "Akif Çovdarovun üzünü də görməmişəm"

## Xəzər rayon Ağsaqqallar Şurasının sədri Hacı Rövşən Salahov Ramiz Zeynalovdan fakt və sübut tələb edir

**Bakı şəhəri Şüvəlan qəsəbəsində yaşayan Xəzər rayon Ağsaqqallar Şurasının sədri Hacı Rövşən Salahov "Yeni Müsavat" qəzetinin redaksiyasına müraciət edib. Redaksiyamıza gələn R.Salahov qəzetimizin 24 noyabr 2015-ci il tarixli sayında dərc edilən "Akif Çovdarovun keçi ferması, MTN məmurlarının zavodları, restoranları" başlıqlı məqalədə onun barəsində yazılanlara etiraz edib.**



**Vəkil Ramiz Zeynalova, onun araşdırmasına istinadən dərc edilən yazıda R.Salahov və onun oğlu Elşən Salahovun adı hallanıb. Həmin məqalədə qeyd edilib:** "...Xəzər rayon Ağsaqqallar Şurasının sədri Hacı Rövşən Salahov A.Çovdarovun ən yaxın adamlarından biridir. Onun oğlu Salahov Elşən Xəzər Rayon İcra Hakimiyyətinin təsərrüfat şöbəsinin rəisi vəzifəsinə Akif Çovdarov tərəfindən təyin edilib və onun kadrı olmaqla rayon ərazisində bahalı ev və torpaq alqı-satqıları və sair hallar barədə ona məlumat verib. Akif Çovdarovun quldurluqla həmin şəxslərdən aldığı pulun bir hissəsi onun da payına düşüb. Elşən Salahov əvvəllər "Standart KB"də işləyib, atası Hacı Rövşən Akif Çovdarovun rayon üzrə pul yığanıdır".

**Hacı Rövşən Salahov müxbirimizlə söhbətində bildirdi ki, nə özü, nə də oğlu E.Salahov A.Çovdarovu tanıyır. "O adamın üzünü də görməmişik" deyən müsahibimiz öz qohum-əqrəbası və el-obasında hörmətli şəxs olduğunu bildirdi:** "Mənim və oğlum Salahov Elşənin adının bu cür hallarla bağlı çəkilməsi bizim şərəf və ləyaqətimizə toxunub, nüfuzumuza xələl gətirib. Yazıda qeyd olunanlar həqiqətləri əks etdirmir. Bu cür məlumatlar dərc edilməzdən əvvəl qarşı tərəfin də fikirlərinin öyrənilməsi məqsədəuyğun olardı. Çünki məqalənin mənə və oğlum Salahov Elşənə münasibətdə heç bir əsası yoxdur".

**Müsahibimiz eyni zamanda E.Zeynalovdan da onunla bağlı söylədiyi fikirlərə görə fakt tələb etdi:** "Ortaya fakt qoysun, sənədlərlə sübut etsin ki, dedikləri həqiqətdir. Mən onunla məhkəmədə də üz-üzə gəlməyə və barəmizdə dediklərinin şər-böhtan olduğunu sübut etməyə hazıram. Mən bu günə qədərki hörmətimi damcı-damcı yığmışam, bir gündə hansısa bir şər-böhtanla ona kölgə salınmasına razı ola bilmərəm".

❑ Sevinc TELMANQIZI

# "Çingiz Əsədullayevlə Eldar Mahmudov yeni ssenari qurub"

## Sahibkarın xanımı: "Qeys Kərimov açıqlamasında onların bizə qarşı cinayətinə şərik olduğunu ortaya qoydu"

**Ötən saylarımızdan birində "Azərqazbank"dakı brilyant əməliyyatı haqda məlumat vermişdik. İş adamı Maqsud Mahmudov banka girov qoyduğu brilyantların şüşə ilə əvəzləndiyini, özünün isə MTN-ə çağırılaraq hədələndiyini, üstəlik, 30 min dollar ondan pul alındığını da açıqlamışdı. Bundan sonra adıçəkilən bankda qanunsuzluqla üzləşmiş sahibkar Haqverdi Məmmədovun həyat yoldaşı Elmira Məmmədova redaksiyamıza müraciət edərək başlarına gətirilən müsibətlərin ictimailəşdirilməsini xahiş etmişdi.**



Çingiz Əsədullayev



Eldar Mahmudov

"Əsədullayevlə Eldar Mahmudovun zəlil duruma saldığı ailə" sərlövhəli yazıda sahibkarın xanımı "Sumqayıt ağac emalı" ASC-nin onun ailəsindən alınmasından söhbət açılırdı. E.Məmmədova prezidentə ünvanladığı, surətini redaksiyamıza təqdim etdiyi müraciətində yazırdı: "Bizim həyatımızı məhv edən "AGBank"ın rəhbəri, eks deputat Çingiz Əsədullayevdir. Biz təkcə mülkünü itirən sahibkarlardan deyilik, biz hər şeyi əlindən alındıqdan sonra borcla taleyin tərs üzünə buraxılmış və dincliyini, evini, ev əşyalarını da itirmiş bir sahibkar ailəsiyik".

**Yazının dərcindən sonra "AGBank"dan redaksiyamıza Ç.Əsədullayevin mövqeyini ifadə edən məktub daxil olmuşdu. Bankdan redaksiyamıza daxil olan yazıdakı fikirlərə münasibətini açıqlayan E.Məmmədova deyir ki, Ç.Əsədullayev yaxasını kənara çəkməklə ailəsinə qarşı törətdiyi qanunsuzluqlara görə cavab verməyəcəyini düşünür. Amma bu belə olmayacaq:** "Çingiz Əsədullayevin qabağa verdiyi Qeys Rza oğlu Kərimov bizim zavodda şərikimiz olub. Qeys mətbuata yalan məlumat verərək qeyd edir ki, zavodun 40 faiz səhmlərini bizə bağışlayıb. Qeys Kərimova sual verirəm: sizin 10 yaşınız var idi ki, belə bir böyük zavodun səhmlərinin yarısını bizə qarşılığı olmadan hədiyyə etdiniz?

Hazırkı vəziyyəti nəzərə alaraq Qeys Kərimova telefon açaraq ona dedim ki, mən baş prokuror Zakir Qaralova məlumat vermək istəyirəm ki, başımıza oyun açan, mülkümüzü talayan Çingiz Əsədullayev və Eldar Mahmudov haqda ölçü götürsünlər. Siz nə deyirsiniz? Qeys Kərimov bildirdi ki, səhmlərini özünə qaytarıblar, hazırda da zavodda çalışır. Hətta dedi ki, neçə gündür yoldaşım Haqverdini axtarıb ki, gedib səhmlərini tələb edib alsın. Dedi ki, sizə heç bir etirazım yoxdur, gedin səhmlərinizi alın, haqqınızı tələb edin, bu sizin hüquqlarınızdır ki, mülkünüzə sahib olasınız.

Amma 24 noyabr 2015-ci ildə mən mətbuatda Qeys Kərimovun böhtan xarakterli fikirlərini oxudum və dəhşətə gəldim. Qeys Kərimov nəinki böhtan yazır, hətta məni şantaj etməkdən belə çəkinmir. Onun fikirlərini oxuduqdan sonra belə qənaətə gəlirəm ki, Qeys Kərimov Cingiz Əsədullayevlə sövdələşərək bu çirkin cinayətin ikinci ssenarisini qurur. Buradan belə aydın olur ki, başda Eldar Mahmudov olmaqla, Çingiz Əsədullayev Qeys Kərimovla əlbir olub bizim mülkümüzü talan ediblər və bizə məxsus olan səhmləri zorla, hədə-qorxu gələrək əlimizdən alıblar. Qeys Kərimov onların bizə qarşı cinayətinə şərik olduğunu açıqlaması ilə ortaya qoydu.Mən qəti və ciddi olaraq Qeys Kərimovun yazdıqlarına etirazımı bildirirəm. Əminəm ki, hüquq-mühafizə orqanları Qeys Kərimovun da əməllərinə qiymət verəcək. Haqq, ədalət bərpa olunacaq".

❑ E.MƏMMƏDƏLİYEV




# "AGBank" təkzib edir

**"Yeni Müsavat" qəzetində "Çingiz Əsədullayev ölkədən getmək istəyir - "qaçış?" adlı məqaləyə "AGBank"ın ("Azəriqazbank") İdarə Heyətinin sədri Azər Mövsümov münasibət bildirib. Baş redaktor Rauf Arifoğlunun adına göndərilən təkzib məktubunda bildirilir ki, məqalədə göstərilən məlumatlar həqiqətə uyğun deyil və bilərəkdən təhrif edilib.**

"Ona görə də "Çingiz Əsədullayev ölkədən getmək istəyir - "qaçış?" adlı yazıda qeyd olunan fikirlərin bütövlükdə həqiqətə uyğun olmadığı haqda "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 45-ci maddəsinə uyğun olaraq "Yeni Müsavat" qəzetində və musavat.com saytında təkzib verilməsini xahiş edirik. "Yazıb nəzərinizə çatdırırıq ki, "AGBank", tək Çingiz Əsədullayevə deyil, 61 nəfər səhmdara məxsusdur ki, onların içində 17,7 faiz payı olan Beynəlxalq Maliyyə Korporasiyası, 10 faiz payı olan "Kazimir Partners" kimi nüfuzlu beynəlxalq maliyyə qurumları var. Çingiz Əsədullayev isə bankın ən böyük səhmdarı olsa da (31,463%), onun səhm payı 50 faizdən aşağıdır. Çingiz Əsədullayev son 10 ildə Milli Məclisin üzvü olduğu üçün, sahibkarlıq fəaliyyəti ilə məşğul olmayıb. O, bankın Müşahidə Şurasına rəhbərlik edib ki, bu da ictimai vəzifədir. "AGBank" Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bankın lisenziyası və beynəlxalq mühasibatı uçotuna uyğun idarə olunur.

Çingiz Əsədullayevin 2015-ci ilin parlament seçkilərində Milli Məclisə üzv seçilməməsinə gəlincə, bu, adi bir haldır. Dünyanın hər yerində bu baş verir, o cümlədən də Azərbaycanda. Bu il onlarla deputatlığa namizəd və ya keçmiş deputatlar Milli Məclisə üzv seçilməyib. Ç.Əsədullayev də bu şəxslərdən biridir".

# "Qara Kəmər"in qara sirləri açılır

# Hacı Məmmədovun işində şok gəlişmə - "ömürlük"də yatan general həbsdən çıxa bilər



Hacı Məmmədov


Zakir Nəsirov

## Həbsdəki qanqsterin bacısı "Yeni Müsavat"a sensasion müsahibə verib; "Hacı nə bilirsə, açıb deyəcək, hər şey ortaya çıxacaq"; məşhur arestantın istintaqı yenilənir; "içəri"dən xəbər göndərib: "Zakir Nəsirov günahsızdır, azad olunmalıdır"

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) İstintaq Təcridxanasında saxlanılan Daxili İşlər Nazirliyinin (DİN) sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun işi üzrə istintaq yenilənəcək. Bu haqda "Yeni Müsavat"ın əməkdaşı ilə söhbətində Hacı Məmmədovun bacısı Arifə Məmmədova bildirib. A.Məmmədovanın sözlərindən aydın olub ki, artıq Hacı Məmmədova yeni vəkil tutublar. A.Məmmədova mətbuata hələlik açıqlama vermək istəmədiyini söyləsə də, bir neçə sualımızı cavablandırıb. Deyib ki, Hacı Məmmədovun özü də işin yenidən araşdırılmasını tələb edəcək:**



- Hacı Məmmədova artıq vəkil tutmuşuq. O, işin yenidən araşdırılmasını istəyir.

***- Vəkillə nə vaxt müqavilə bağladız?***

- Dünən bağlamışıq. Qabaqda proseslər var. Hacı nə bilirsə, açıb deyəcək. Tələsməyin, hər şey ortaya çıxacaq.

***- İşi yenidən araşdıracaqlar?***

- Hə, yenidən istintaq araşdırması olacaq.

***- Artıq vəkil Hacı Məmmədovla görüşüb?***

- Aparıb sənədləri verib, gələn həftə Hacı ilə görüşəcək.

***- Elçin Behbudov qəzetimizə açıqlamalarından birində demişdi ki, Hacı Məmmədov ailə üzvləri ilə görüşdən imtina edib. Nə vaxtdan sizinlə görüşmürdü?***

- 3 ilə yaxındır ki, bizimlə görüşdən imtina edirdi. Telefonla da danışmırdı. Bizi görmək belə istəmirdi.

***- Bəs nə vaxtdan görüşürsüz?***

- Eldar Mahmudovu çıxardılar, görüşmək istədi. Əvvəllər isə qəti şəkildə bizimlə görüşdən imtina edirdi, deyirdi ki, zəhləm gedir hamıdan, heç kimi görmək istəmirəm. Hacı Məmmədov 3 nəfəri öldürübsə, baxın görün bunlar, Eldar Mahmudov nələr edib! Bunlara inam qalıb?

***- Hacı Məmmədov məhkəmədə deyirdi ki, mən "osminoq"un bir qolu olmuşam. Başı kim olub?***

- Mən çox şeyləri deyəcəyəm. Tələsməyin. Biz istəmirik ki, hələlik bunlar yazılsın. Gözləyin.

***- Siz Hacı ilə görüşdə nədən danışdız?***

- Köhnə işlərdən danışdı, dedi ki, Zakir Nəsirov günahsızdır, çıxmalıdır. Onu məcbur ediblər.

***- Yalan ifadə verməyə məcbur ediblər?***

- Özü hər şeyi açıb deyəcək.

***- Dediklərini yazılı şəkildə baş prokurora, Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinə verib?***

- Vəkili gözləyir, yazıb verəcək. O istəyir ki, bütün bu məsələlər "ofisalnı" olsun. Hər şeyi açıb deyəcək.

***- O dövrdə niyə demirdi?***

- Necə desin? Ora yerdir? Özləri "julik"in böyüyü idilər. Hər şeyi açıb deyəcəyik.

***- Hacı Məmmədova təzyiqlər var?***

- İndi ona təzyiqi kim edəcək? 10 ildir ki, oradadır...

***- Əvvəllər təzyiqlər vardı?***

- Əlbəttə vardı. Onu bu illər ərzində təzyiq altında saxlayıblar orada. Hər şeyi bir-bir deyəcək.

***- Vəkilini dəyişmisiniz, yoxsa həmin köhnə vəkildir?***

- Bilmirsən ki, kim bu işə baş qoşursa, axırı ölümdür? Səməd Əliyev rəhmətə gedib. Başqa vəkildir. Biz Səməd Əliyev öləndən sonra ona vəkil tutmaq istəmişdik, özü imtina edirdi. Oğlu Teymur neçə dəfə MTN-ə zəng vururdu, deyirdilər ki, vəziyyəti yaxşıdır, amma sizi görmək istəmir, danışmaq istəmir, vəkil də istəmir.



***- Belə məlumatlar var ki, bu yaxınlarda Hacı Məmmədov Elçin Behbudovla görüşmək istəyib. Bu haqda məlumatınız vardı?***

- Hacı mənə zəng edib dedi ki, Elçin Behbudovla əlaqə saxla, ona de ki, təcili yanıma gəlsin. Mən də zəng elədim, Elçinə dedim. 2 gündən sonra Elçin Behbudov öldü. Hacının yanına gedə bilmədi. Sonra dedilər ki, ürəyi tutub, ölüb.

***- Hacı Məmmədovun Elçin Behbudovla nə işi vardı?***

- Bilmirəm. Mənə dedi ki, zəng elə, zəng eləyib dedim, o da 2 gündən sonra öldü.

***- Sizcə, Elçin Behbudovun ölümü təsadüfdür?***

- Dərddən ölüb də yəqin. Nə deyim.

***- Hacı Məmmədovun sağlıq durumu necədir?***

- Yaxşıdır, hər şey qaydasındadır.

***- Ona yemək-içmək aparırsız?***

- Bu gün (dünən-red.) aparacağıq. Əvvəl qəbul eləmirdi. Apardığımız yeməyi də qəbul eləmirdi. İndi deyir ki, gətirin.

***- Hacı Məmmədovun Qobustan Qapalı Həbsxanasına köçürüləcəyi haqda məlumatlar var. Eşitmisiz?***

- Eşitmişik. Amma köçürməkdən söhbət getmir.

***- Bacınız oğlu Elçin Əliyev azad olunub?***

- Keçən il buraxdılar. İndi xaricdə yaşayır.

***- 2 il əvvəl sizə məxsus bağ əlinizdən alındı. Bundan Hacı Məmmədovun məlumatı var?***

- Var, demişəm ona. Dedi ki, niyə bağı vermisən? Bağ sənin idi axı. O bağ atamın idi. 1990-cı ildə almışdı. Atamdan sonra anama qalmışdı. Anam da mənə vermişdi. Əlimdən aldılar. O ev mənim idi. "Kupça" da əlimdə idi. Ora Hacının heç bir aidiyyəti yox idi. Pasportum da indi də ora qeydiyyatdayam. Mən xaricdən gələndən sonra şəhərdəki evimi satıb gedib oranı təmir elədik, köçdük ora. Bunlar da tutub aldılar. O vaxt mən Eldar Mahmudovla bacara bilməzdim. Ona bağın alınmasını Cahangir Hacıyev tapşırıb.

***- Niyə belə tapşırıq verib?***

- Yəqin Hacıdan yoldaşına görə qisas alır. Başqa nə olacaq ki? Bağımın əlimdən alınması Eldar Mahmudovla Cahangir Hacıyevin işidir. 10 il bağı qoydular həbsdə. Sonra da götürüb verdilər dəxli olmayan bir adama. Bu gün mən küçədə qalmışam. Məhkəməyə də təzyiq edirdilər. Məhkəmə bizim iddia sənədlərini belə qəbul etmirdi. Zorla qəbul eləmişdilər. Daşınar və Daşınmaz Əmlak Hərracının rəhbərinin əli ilə bağımı satdılar. Halbuki həmin bağı atam 1990-cı ildə almışdı. O bağda qeydiyyatda mən idim. Onlar bağı əlimdən aldılar və başqasına verdilər. Məndən bağı alanda bunları desəydim, özümü də Hacının yanına göndərərdilər. Hazırda mən evsiz kimi polisdə qeydiyyatdayam.



***- Hacı Məmmədovun sağlıq durumu necədir? Görüşdə necə görünürdü?***

- Yaxşıdır, normaldır. Şikayət eləmir. İstəyir ki, bu işlərin üstü açılsın. Mən hələlik heç nə danışmaq istəmirəm. Qoy vəkil onunla görüşsün. Hər şey bilinəcək.

A.Məmmədova deyib ki, başlarına gələnlərlə bağlı ətraflı şəkildə yazaraq istintaqa təqdim edəcəklər.

Qeyd edək ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara Kəmər" əməliyyatı zamanı həbs olunublar. 2006-cı ildən 2007-ci ilə qədər davam edən məhkəmə zamanı H.Məmmədov yarımçıq ifadələr verməklə, bir-birinə zidd olan fikirlər səsləndirib. Məhkəmənin keçirildiyi günlərdə mətbuatda onun həqiqəti gizlətməyə çalışdığı haqda çoxsaylı yazılar dərc olunub. Hacı Məmmədovun yarımçıq ifadələri ilə yaddaşlarda qalan məhkəmənin sonunda onun özü də daxil olmaqla, DİN-in keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər. Zamində olan 3 nəfərdən biri - İbrahim Bağırovun işi xitam edilib. Digər 2 nəfər - Azər Əliyev və Aqil Hüseynov isə 2 il şərti cəza alıblar. Onlar saxta sənəd hazırlamaqda, dələduzluq və sair bu kimi əməllərdə təqsirli bilinirlər. Qalan 13 nəfərə isə 8 ildən 15 ilədək həbs cəzası verilmişdi.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015



# Ermənistanın "bacı"ları çoxalır?

Hüseynbala SƏLİMOV

**Düz bir neçə gün Rusiyanın Türkiyəyə cavabının nə olacağını düşünməklə yaşadıq. Çox şeylər deyildi. Çox fərziyyələr səsləndi. Əslində prosesin tamam bitdiyini demək hələ tezdir. Bir neçə gün də gözləmək lazım gələcək.**

Amma artıq demək mümkündür ki, Rusiyanın siyasi isterikasının maksimumu arxada qalıb. Düzdür, ruslar hələ bundan sonra Türkiyə ilə münasibətlərinə kardinal şəkildə baxacaqlarını deyirlər. Fəqət, güman edirik ki, ehtirasların piki artıq sovuşub. İndi Rusiyadan gözlənilən bir şey varsa da o da erməni "genosidi" ilə bağlı yeni qanunun qəbul edilməsidir. Ruslar deyirlər ki, onlar Fransada olduğu kimi Rusiyada da erməni "genosidi"nin inkarı üçün cinayət məsuliyyətini nəzərdə tutan qanun qəbul edəcəklər.

Bəli, onlar bunu edə bilərlər. Böyük ehtimalla edəcəklər də. Amma gərək özləri başa düşsün ki, belə bir qanun insanların fundamental azadlığını - ifadə azadlığını məhdudlaşdırır. Artıq belə bir presedent bir dəfə Avropa məhkəməsinin gündəmində olub. Avropa Məhkəməsi erməni "genosidi"ni şübhə altına alan Türkiyə vətəndaşına haqq qazandırmışdı. Əslində Fransa kimi azad bir ölkədə belə bir qanunun qəbul edilməsi biabırçılıq idi. Di gəl ki, fransızlar onu qəbul etməkdən çəkinmədilər...

İndi ruslar belə bir cəhddə bulunur. Olsun. Onu demək mümkündür ki, həmin qanun qəbul edilərsə iki ölkənin münasibətlərində uzunmüddətli problem yaşanacaq. Təbii ki, onun Türkiyə üçün bir isti-soyuğu olmayacaq. Amma bir məsələ var ki, bu cür hadisələrə tamam biganə yanaşmaq da mümkün deyil...

Bəs bu münasibətlər Azərbaycan üçün nə vəd edir? Türkiyə Azərbaycanı heç bir vaxt öz problemlərinə ortaq etmir. Amma burada bir siyasi etika məsələsi də var. O da budur ki, Türkiyə guya Azərbaycanın ən yaxın müttəfiqdir. Ona görə "guya" deyirik ki, reallıq bir qədər fərqli məntiq diqtə edir - indi ölkənin müttəfiqlərindən daha çox bizim hakimiyyətin müttəfiqləri haqqında danışmağa məhkumuq. Bu sferada isə vəziyyət tamam başqadır - bəli, bizim hakim dairə Rusiyaya çox bağlıdır...

2013-cü ilin prezident seçkisi vaxtı kimin daha rusofil siyasi qüvvə olduğu haqda söhbət düşəndə deyirdik ki, tələsməyin, Rusiyanın izləri Azərbaycanın siyasi "dərinliklər"inə sirayət edib. O səbəbdən də kimin daha rusofil olduğu haqda deyil, Rusiyanın kimi daha çox sevdiyi və kimə daha çox dəstək verdiyi haqda danışmaq daha düzgün olardı...

Təbii ki, Rusiya ilə normal münasibətlər Azərbaycanın da maraqlarına cavab verir. Amma yalnız normal münasibətlər! İndi isə onları normal adlandırmaq bir az şişirtmə olardı. Bizim hakimiyyət Qərbi yox, Rusiyanı seçdi. Bunu artıq Qərbdə də başa düşüblər. Orada da ehtiyat edir ki, bizim hakim elitanı tənqid etmək ölkəni bir az da Rusiyaya yaxınlaşdırar. Amma Türkiyə bizim müttəfiqimizdir. Elə bu səbəbdən də ermənilərin Türkiyə üzərində hər qələbəsi həm də onların bizim üzərimizdəki qələbəsidir...

Amma rəsmi Bakı bunun fərqindədirmi? Təəssüf ki, Fransada bədnam qanun qəbul edilən sonra belə Bakının bu ölkəyə münasibəti dəyişmədi. Fransa heç olmasa, Qarabağ problemində bir qədər fərqli mövqe tutsaydı bunu haradasa başa düşmək olardı. Amma Fransa belə münasibət sərgiləmir, hətta Ermənistanı özünün kiçik bacısı adlandırır. İndi Rusiya da Ermənistanın bacısı olmağa iddialıdır. Bəli, ermənilərin bacılarının sayı artır, özü də yaman artır...

Bu, müəyyən mənada bizə də siqnal olmalıdır. Bu bədnam qanunlar bizə ermənilər və Ermənistan haqqındakı əsl həqiqətləri dünyaya çatdırmağa mane olacaq. Artıq demək olar ki, mane olur...

Amma biz bunun fərqində deyilik. Özümüzü elə aparırıq ki, sanki bütün bunların bizim üçün fərqi yoxdur. Amma böyük bir fərqi var: bizə vəd verən ölkələrin sayı artır, Ermənistanın isə real dostlarının...

Əslində Minsk Qrupunun həmsədrlərinin seçimi erməni imkanlarının, erməni dayaqlarının daha üstün olması demək idi. Bu üç dövlət arasında Azərbaycanın həqiqətən də dostu adlandırıla biləcək bir dövlət də yoxdur. Ola bilsin, ABŞ müəyyən qədər mərkəzçi mövqe tutmağa cəhd edir. Amma bunu Fransa və Rusiya haqqında demək olmur...

Elə bu səbəbdən də arxayınlaşmaq lazım deyil. Ən azı ona görə ki, Rusiyada bədnam erməni qanununun qəbul edilməsi həmvətənlilərimiz üçün bu ölkədə siyasi atmosferin bir az da ağırlaşması demək olacaq. Bunu istəyirikmi?..

# Azərbaycan Türkiyə ilə Rusiya arasında vasitəçi ola bilər

## Hakimiyyətin barış üçün vasitəçilik təşəbbüsünə müxalifətdən dəstək

**Azərbaycan Türkiyə ilə Rusiya arasında yaranan gərginliyin aradan qalxması üçün vasitəçilik etmək istəyir. Son iki gündə Azərbaycan hakimiyyətinin təmsilçilərinin verdiyi açıqlamalardan belə məlum olub. Milli Məclisin sədri Oqtay Əsədov dünən bəyan edib ki, Azərbaycan Türkiyə ilə Rusiya arasında yaranan gərginliyin aradan qaldırılması üçün əlindən gələni etməyə hazırdır.**

Bundan bir gün əvvəl isə baş nazirin müavini, YAP-ın icra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan son günlərdə məlum insidentlə əlaqədar Türkiyə ilə Rusiya arasında münasibətlərin gərginləşməsindən təəssüflənir və narahatdır.

**Ə.Əhmədov qeyd edib ki, Türkiyə bizim üçün qardaş və strateji müttəfiq ölkədir, Rusiya da Azərbaycanın yaxın qonşusudur, ölkələrimiz arasında hərtərəfli sıx dostluq əlaqələri mövcuddur:** "Azərbaycanın həm Türkiyə, həm də Rusiya ilə əlaqələrinin böyük tarixə malik olduğunu ayrıca vurğulamağı lazım bilirəm. Azərbaycana dost olan ölkələrin arasında qarşıdurmanın yaranmasını və dərinləşməsini arzu etmirik. Biz mümkün qədər tezliklə hər iki ölkə arasında gərginliyin aradan qaldırılmasının tərəfdarıyıq. İnanıram ki, bu bütün tərəflərin maraqlarına cavab verir, habelə bölgədə xoşagəlməz proseslərin qarşısını almağa xidmət göstərə bilər. Qəti əminliklə demək istəyirəm ki, Azərbaycan tərəfi Türkiyə ilə Rusiya arasında yaranmış arzuolunmaz gərginliyin tezliklə aradan qaldırılması naminə hər iki ölkə ilə dostluq münasibətləri çərçivəsində xidmətlərini təklif etməyə, zəruri addımlar atmağa hazırdır".



Pənah Hüseyn

Müxalifət partiyaları Azərbaycanın Türkiyə və Rusiya münasibətlərinin düzəlməsi üçün vasitəçilik etməsi məsələsinin gündəmə gətirilməsini müsbət qarşılayıblar.

**KXCP sədri Mirmahmud Miralioğlu "Yeni Müsavat"a bildirdi ki, əgər hakimiyyət Türkiyə ilə Rusiyanın münasibətlərinin normallaşmasına yardım etmək təşəbbüsünü qaldırırsa, bunu normal təşəbbüs hesab etmək lazımdır. Eyni zamanda bu təşəbbüsün real işə çevrilməsi istiqamətində addımlar atılmalıdır:** "Azərbaycan bu müsbət təşəbbüsü rəsmi olaraq qaldırsın. Türkiyə ilə Rusiya bunu qəbul edər, ya eləməz, bu başqa məsələdir. Bu gün Türkiyənin xarici işlər naziri Bakıdadır. Bəlkə də indi söhbət etdiyimiz məsələ ilə bağlı da bir məsləhətləşmə olub. O da istisna deyil ki, Rusiyadan Türkiyə ilə münasibətlərin normallaşması, Putinin səhvinin yuyulması üçün mesaj verilsin. Azərbaycan hakimiyyətinin təmsilçiləri də buna görə barışdırıcılıq təşəbbüsündə bulunurlar. Hər bir halda barışdırıcılıq missiyası müsbət missiyadır. Qardaş Türkiyə ilə qonşuluğumuzda olan Rusiya arasında gərginliyin artması Azərbaycanın xeyirinə deyil. Ona görə də Azərbaycanın münasibətlərin normallaşmasını istəməsi təbiidir".

KXCP sədri onu da vurğuladı ki, bəzi adamların özlərindən müştəbehlik edərək Türkiyəni Rusiyadan üzr istəməyə çağırması yanlışlıqdır, bağışlanmaz səhvdir, xəyanət dərəcəsində hərəkətdir.

**AXP sədri Pənah Hüseyn bildirdi ki, Azərbaycan təyyarə hadisəsi ilə bağlı beynəlxalq hüququn yanında olmalıdır. Beynəlxalq hüquq da bu məsələdə daha çox Türkiyənin mövqeyini dəstəkləyir:** "Rusiya ilə Türkiyə arasında gərginliyin aradan qaldırılması üçün Azərbaycanın vasitəçilik rolu oynaya bilmək imkanlarından istifadə olunması doğru olar. Azərbaycanın Türkiyə ilə Rusiya arasında münasibətlərin gərginləşməsindən narahat olması təbiidir. O baxımdan da mən hakimiyyətdən vasitəçilik istiqamətində açıqlamaları xeyli dərəcədə səmimi hesab edirəm".

Azərbaycanın vasitəçiliyinin nəticə verib-verməyəcəyi məsələsinə gəldikdə isə P.Hüseyn dedi ki, nə mümkündürsə onu eləmək zəruridir. Bütün mümkün addımlar atılsa müəyyən müsbət təsirləri ola bilər.

❑ Etibar SEYİDAĞA

# "AST Telman"dan sonra Mənsimov da müflis olarsa...

## Ekspert azərbaycanlı milyarderlərin müflis olmasının ölkəmizə təsirindən danışdı

**"AST" Şirkətlər Qrupunun prezidenti Telman İsmayılovun müflis olmasından sonra Türkiyədə yaşayan Azərbaycan əsilli milyonçu, tanınmış iş adamı Mübariz Mənsimovun da "sərvətinin əriməsi" ilə bağlı xəbərlər yayılmaqdadır.**

Dünya miqyasında tanınan azərbaycanlı iş adamlarının müflis olmasının ölkə iqtisadiyyatı və əhalisi üçün hansı təsirləri olacaq?

Məsələ ilə bağlı musavat.com-a **iqtisadçı ekspert Rəşad Həsənov** danışıb. O bildirib ki, azərbaycanlı milyarderlərin müflis olması ölkədə müəyyən mənada hiss olunacaq: ""AST Telman"dan söhbət gedirsə, onun Rusiyada bazarları var idi. Onun şirkətlərində bir çox azərbaycanlılar fəaliyyət göstərirdi və hansısa formada bu gəlirlərin müəyyən bir qismi də Azərbaycana istiqamətlənirdi. Onun "Çerkizovsk" bazarının bağlanması Rusiyada yaşayan azərbaycanlıların sosial vəziyyətinə ciddi mənfi təsir göstərdi. Eyni zamanda Mübariz Mənsimov da biznes sferasında fəaliyyət göstərir. Onun Azərbaycanda da bir neçə şirkətləri var. Əgər Mübariz Mənsimov sonrakı dövrlərdə iflas olarsa, ilk növbədə bu hal Azərbaycanda bəhs etdiyimiz şirkətlərin bağlanmasına səbəb olacaq. Çünki Mənsimovun açıqlamalarına görə, Azərbaycandakı şirkətləri dotasiya ilə fəaliyyət göstərir. Yeni Mənsimov bu şirkətləri ayaqda saxlamaq üçün əlavə olaraq digər istiqamətlər üzrə gəlirlərini bura yönəldir. Onun da biznesi iflas olarsa, burada çalışanların işsiz qalması ilə nəticələnəcək. Belə görünür ki, Mübariz Mənsimovun Azərbaycana dəstəyi, "AST Telman"la müqayisədə daha yüksəkdir. Hər iki milyarderin müflis olmağı isə qeyd etdiyim kimi, problemlərə səbəb olacaq".



Mübariz Mənsimov



Telman İsmayılov

**Ekspert bildirib ki, Rusiyada olan azərbaycanlı milyarderlərin bir çoxunun gəlirləri neft sektorundan qaynaqlanırdı:** "Neft sektorundakı zəiflik problemlərə səbəb olacaq. Azərbaycanlı milyarderlərin daha çox məskunlaşdığı ölkə Rusiyadır. Rusiyada olan milyarderlərin isə bir çoxunun gəlirlərinin əsası neft sektorundan qaynaqlanırdı. O cümlədən də Rusiyada müəyyən "oyun" qaydalarının dəyişməsi milyarderlərin bilərəkdən müflisləşməsinə səbəb ola bilər. Orada qrup mübarizələri də gedir. Müşahidə edirik ki, misal üçün, AST Telmanın müflisləşməsi istiqamətində Rusiya hökuməti ciddi işlər gördü. Bu, digər azərbaycanlı milyarderlərə də tətbiq olunarsa, neftin hazırkı satışının zəifləməsi nəticəsində bu adamların mövqeyi büdrəyər. Bu hal, həm də miqrantların ölkəyə geri dönüşünə şərait yaradarsa, digər tərəfdən də müdafiəsiz qalan azərbaycanlıların Rusiyada gəlirlərinin azalmasına da səbəb olar. Zəncirvari olaraq bu, miqrantların ölkəyə göndərdikləri vəsaitlərin də həcminə mənfi təsir göstərər. Hələ ki çox qlobal təsirlərdən söhbət getməsə də, növbəti dövrlərdə qeyd etdiyimiz müflisləşdirmə və ya müflis olma prosesi davam edərsə, Azərbaycan üçün gözlə görülə biləcək iqtisadi fəsadlar ortaya çıxacaq. Onların müflis olmasında müxtəlif amillər var. Xüsusilə də Rusiyada idarəetmə sisteminə diqqət etsək görərik ki, orada əsas problemlərdən biri liberal bazarın olmamasıdır. Bir çox hallarda burada formalaşan milyarderlərimiz hansısa hakimiyyət qrumlarına yaxınlığı ilə bu məqamlara gəlib çatıblar. Bəzi hallarda isə liberal bazarın normal iqtisadi münasibətlərinin və mülkiyyət hüququnun təmin olunmadığı ölkələrdə, hakimiyyətin yuxarı dairələri ilə münasibətlərdə hansısa problemlərin ortaya çıxması biznesmenin iflasına səbəb olan əsas amilə çevrilir. "AST Telman" timsalında biz bunu müşahidə edə bilərik. Düşünürəm ki, bəzi hallarda onun prosesləri idarəetmə gücü var idi. Lakin buna şərait yaradılmadı. İstisna deyil ki, növbəti dövrlərdə bu, Rusiyada yaşayan digər azərbaycanlı milyarderlərə də həvalə olunmasın".

**Məsələ ilə bağlı iqtisadi ekspert Natiq Cəfərlinin isə mövqeyi fərqli olub. O musavat.com-a açıqlamasında bildirib:** "Həmin azərbaycanlıların böyük əksəriyyəti 90-cı illərdə Rusiyada qeyri-qanuni pul qazananlardır. Onlar rəqabətli mühitdə, normal bazar qaydalarına uyğun olan şəraitdə işləməyi öyrənməyiblər, bunu bacarmırlar. Baş verənlər də əsasən onların yeni şəraitə uyğun işlərini qura bilmədiklərinin nəticəsidir. Bunun Azərbaycana təsirlərinə gəldikdə isə yeganə təsiri onların burada olan daşınmaz əmlaklarının satışa çıxarılması, əldə edilən vəsaitin ölkədən dollar şəklində çıxmasında olacaq".

❑ Əli RƏİS

YENİ MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015






# Nardaranda həlak olan polislər II Fəxri Xiyabanda dəfn edildilər

## Törəndə nairlər də iştirak etdilər; prezident dünyasını dəyişən polislərə ölümündən sonra orden verdi









**Nardaranda dindarlarla atışmada dünyasını dəyişən polis əməkdaşları Vüqar Əyyub oğlu Nəsibov və İsmayıl Rəsul oğlu Tağıyev dünən II Fəxri Xiyabanda dəfn ediliblər. Musavat.com xəbər verir ki, mərasimdə iştirak etmək üçün xiyabanın önündə hüquq-mühafizə orqanlarının əməkdaşları toplanıb.**

Daxili işlər naziri general polkovnik Ramil Usubov, baş prokuror Zakir Qaralov, milli təhlükəsizlik nazirinin birinci müavini Mədət Quliyev, müdafiə naziri Zakir Həsənov, Dövlət Yol Polisinin rəisi Ramiz Zeynalov, baş prokurorun müavini Rüstəm Usubov, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov, Prezident Administrasiyasının Müdafiə Məsələləri şöbəsinin müdiri Məhərrəm Əliyev, Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev də dəfn törənində iştirak ediblər.

Dəfn mərasimi saat 13.35-də başa çatıb.

Prezident İlham Əliyev Daxili İşlər Nazirliyinin əməkdaşlarının "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

**Sərəncamda deyilir:** "2015-ci il noyabrın 26-da Bakı şəhərinin Nardaran qəsəbəsində Daxili İşlər Nazirliyi tərəfindən keçirilmiş xüsusi əməliyyat nəticəsində təxribatlar, kütləvi iğtişaşlar və terror aktları törətməklə Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsini planlaşdıran və din pərdəsi altında fəaliyyət göstərən silahlı cinayətkar dəstə zərərsizləşdirilib. Xüsusi əməliyyat zamanı iki polis əməkdaşı qəhrəmancasına həlak olub.

Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyin qorunmasında xüsusi xidmətlərinə və göstərdikləri cəsarətə görə Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilsinlər:

- polis serjantı Vüqar Əyyub oğlu Nəsibov (ölümündən sonra)
- polis serjantı İsmayıl Rəsul oğlu Tağıyev (ölümündən sonra)".

Qeyd edək ki, Vüqar Nəsibov idmanın kikboksinq növü üzrə dəfələrlə çempion olub. İki övladı var.

38 yaşında dünyasını dəyişmiş İsmayıl Tağıyev ağırlıqqaldırma ilə məşğul olub. O, Azərbaycan çempionu, idman ustası, beynəlxalq yarışların iştirakçısı, veteranlar arasında Avropa çempionu idi. Şəhid polis 2012-ci ildə Lənkəran Şəhər Olimpiya İdman Kompleksində veteran ağır atletlər arasında keçirilmiş Avropa Çempionatında 105 kq və 105 kq-dan yuxarı çəki dərəcələrində qızıl medal qazanıb.

Tağıyevin iki oğlu, bir qızı var. Oğlu cəmi 2 həftə əvvəl doğulmuşdu.

❑ **İlkin MURADOV**
**Foto: Məhəmməd TÜRKMƏN**

## Nardaranda son vəziyyət: qəsəbə sakinləri "qarşıdurma istəmirik" deyir

### Kərbəlayi Natiq Kərimov: "Biz sakitliyin tərəfdarıyıq, bu dövlət bizim dövlətimizdir"




**"Cənazələrin ailələrinə verilməsini istəyirik". Bunu Nardaranda olan musavat.com-un reportyoruna açıqlamasında Nardaran ağsaqqalı Kərbəlayi Natiq Kərimov deyib.**

N.Kərimov deyib ki, kənd camaatı qarşıdurma istəmir: "Burda olanların hamısı şiədir. Heç kim dava, qarşıdurma istəmir. Məsələ dinc yolla həll olunmalıdır. Meyitləri versinlər. İnsanlar uşağını dəfn etsin".

Dünən günorta saatlarından kənddə işıq yanmır. N.Kərimov deyir ki, işığın olmaması ilə bağlı "Azərişıq"a məlumat verilib: "Günorta namazından işıq yoxdur. Dedilər, bir azdan olacaq. Deyirlər ki, ərzaq gətirilmir. Bilmirik firmalar, ya da polis buraxmır. Amma dəqiq deyil. Postlarda ciddi yoxlama var".

Bu arada Nardaranda polislə toqquşmada ölənlərin adları məlum olub. Bunlar Babayev Əkbər Nazim oğlu, Səfərov Sarvan Şirvan oğlu, Bünyadov Rafael Zeynalabdin oğlu və Abbas Hüseyndir.

Qeyd edək ki, Nardarana gələrkən biz də ciddi şəkildə yoxlanıldıq. Polis yoxlamasından sonra kənd camaatının qurduğu postlarda da yoxlama aparılır. Kənd camaatından kənar şəxslər buraxılmır.

**N.Kərimov onu da bildirdi ki, onlar sakitliyin tərəfdarıdır:** "Biz sakitliyin tərəfdarıyıq, bu dövlət bizim dövlətimizdir. Bu dövlətin qurulmasında nardaranlılar da iştirak edib. Dövlət hamımızındır. Söz azadlığı varsa, sözümüzü deyirik".

Axşama yaxın isə İmam Hüseyn meydanında kənd camaatı toplaşıb. Tonqallar qalanıb.

"Azərişıq" ASC Bakının Nardaran qəsəbəsində abunəçilərin elektrik enerjisi ilə təchizatında yaranmış problemlə bağlı məsələyə aydınlıq gətirib.

ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Tanrıverdi Mustafayev "APA-Economics"ə bildirib ki, qəsəbədə elektrik enerjisinin təchizatında yaranan problemlərin səbəbi abunəçilərin borcunun olmasıdır. O, dəfələrlə xəbərdaqlıq edilməsinə baxmayaraq, əhalinin borcunu ödəmədiyini, bu səbəbdən də qəsəbəyə verilən elektrik enerjisinin kəsildiyini deyib.

❑ **İlkin MURADOV,**
**Məhəmməd TÜRKMƏN**

# Hökumətlə nardaranlıların münasibətləri niyə düzəlmir?

## Noyabrın 26-dakı faciə ilk deyil; 2002-ci ilin yayında da buna bənzər hadisə baş vermişdi; Qabil Hüseynli: "Hökumətin səbri tükəndi..."

**Azərbaycanda noyabrın 26-da Sabunçu rayonunun Nardaran qəsəbəsində bir qrup radikal dindarla polislər arasında baş verən qarşıdurma sonda faciə ilə nəticələndi. Qanlı faciədə polis əməkdaşlarından 40 yaşlı mayor Vüqar Nəsibov və 38 yaşlı İsmayıl Tağıyev həlak oldular.**

Radikal dindarlardan da 4 nəfər öldü. Bunlar Babayev Əkbər Nazim oğlu, Səfərov Sarvan Şirvan oğlu, Bünyadov Rəfail Zeynalabdin oğlu və Abbas Hüseyndir. Həlak olan radikallardan A.Hüseynin "Müsəlman Birliyi" hərəkatının sədri Hacı Tale Bağırzadənin sürücüsü olduğu deyilir. Hadisə nəticəsində elə həmin gün Hacı Tale başda olmaqla, 14 nəfər həbs edilib.

Qeyd edək ki, Nardaranda belə hadisə ilk deyil. Son 15 ildə qəsəbə sakinləri ilə hakimiyyət arasında daim soyuq münasibətlər olub. 2002-ci ilin yayında da polislə dindarlar arasında buna bənzər hadisə baş vermiş, nəticədə hər iki tərəfdən ölən və yaralananlar olmuşdu.

Nardaranlılarla hakimiyyət arasında illərdir davam edən gərgin münasibətlər nədən qaynaqlanır? Son hadisələr onu göstərdi ki, iqtidar təcili tədbirlər görməsə, belə faciələrə yenə də şahidlik edə bilərik.

**Politoloq Qabil Hüseynli** bildirdi ki, Nardarandakı müəyyən bir kəsim ilk vaxtlar sosial problemləri qabardırdılar. İndi həmin məsələlər həll olunub: "Onların torpaq iddiaları var idi. Hazırda aradan qaldırılıb. Nardaranın indiki vəziyyəti Bakının digər kəndlərindən yaxşıdır. Ora yol çəkilib, əhali qaz, işıq, su ilə təmin olunub. Dini inanclarının yerinə yetirilməsi üçün hər cür şərait var. Ən böyük məscidlərdən biri burada tikilib. Rəhimə xanım məqbərəsinə ziyarət üçün kifayət qədər imkanlar yaradılıb. Narazılıq üçün əsas yoxdur. Çox təəssüflər olsun ki, son zamanlarda "Müsəlman Birliyi" adlı hərəkat burada yuva salıb. Bunlar yerli Nardaran əhalisi deyillər. Kənardan gəlmədirlər. Amma nardaranlıların bir qismini təsir dairələrinə salmağı bacarıblar. Hətta bunlar nardaranlılardan topladıqları ilə əllərinə böyük vəsait yığıblar. Onların İranın din xadimləri ilə görüşləri telekanallarımızda yayımlanıb. Xüsusi xidmət orqanlarına bu radikal kəsimin şəriət dövləti qurmaq istiqamətində məlumatlar çatdırılırdı. Bu məlumatlar o zaman həqiqətə çevrildi ki, bunlar Nardaran çərçivəsindən çıxaraq, Azərbaycanın rayonlarına da yayılmağa başladılar. Bəzi bölgələrimizdə özəklərini yaratdılar. Bundan sonra hökumətin səbri tükəndi. Bundan sonra nardaranlıları təsir dairələrinə düşdükləri insanlardan qurtarmaq üçün polis əməliyyatlara başladı. Çox təəssüflər olsun ki, bu əməliyyatda 4 nəfər yerli sakin, iki nəfər də polis əməkdaşı həlak oldu. Orada gərginlik hələ də davam etməkdədir. Onların ideyalarının bundan sonra nədən ibarət olduğunu söyləmək çətin olsa da, demək mümkündür ki, indiyə qədər mövcud hakimiyyəti devirmək, İran tipli dövlət qurmaq kimi arzuları olub. Toplantılarında bunu açıq şəkildə büruzə veriblər. Nardaranlıların hakimiyyətdən nə istəkləri ola bilər ki? Kənd adamlarının rifah halının yaxşılaşdırılması, işlə təmin olunmaları kimi tələblər ola bilər. Düşünürəm ki, bu tələblərin hamısı başqa kəndlərlə müqayisədə yüksək səviyyədə təmin olunub. Bundan artığını hökumətdən tələb etmək mümkün deyil".


Qabil Hüseynli

**Politoloq onu da bildirdi ki, hakimiyyətin nardaranlılardan yeganə istəyi dövlətçiliyi yüksək tutmaları ilə bağlıdır:** "Hökumət istəyir ki, nardaranlılar daim dövlətçiliyi qorusunlar, rəhbər tutsunlar, başqa qrupların təsiri altına düşməsinlər. Çünki söylədiklərimiz nardaranlıların hamısına aid deyil. Nardaranın kifayət qədər tanınmış ağsaqqalları var. O ağsaqqallar daim kənddə qarşıdurmaların yatırılmasında müsbət rol oynayıblar. Hesab edirəm ki, Nardaran ağsaqqalları bu məsələni də yoluna qoyacaqlar. Bu məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin apardığı işlər bəhrəsini verməlidir. Qabaqlayıcı tədbirlər görmək istiqamətində dini qurumlarımız fəaliyyətlərini sürətləndirməlidirlər. Ölkəmizin Nardaran adlı kəndinin bu qurumun dəstəyinə, yaxud dini baxışlarının təmin olunmalarına ehtiyacları var".

**Q.Hüseynli nardaranlıların etirazlarının uzun illərdir davam etməsinə də aydınlıq gətirdi:** "Hakimiyyətin dinə qarşı mənfi münasibətinin olması barədə fikirlər səslənir. Mən bu fikirlərlə razı deyiləm. Azərbaycan dünyəvi ölkədir. Dindən ayrılmış ölkəyik. Amma eyni zamanda vicdan azadlığı da hökm sürür. Hakimiyyət daim nardaranlılara böyük ehtiyatla yanaşmaqla, məsələni həll edib. Nardarana ögey münasibət olsaydı, o böyüklükdə məscid tikilməzdi, ziyarətgahların ziyarət edilməsi üçün şərait yaradılmazdı. Dövlət dindən ayrıdır, eyni zamanda dinin siyasiləşməsini istəmir. Bu baxımdan belə problemlərin böyüməsini istəmir".

❑ **Cavanşir ABBASLI**

MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015



# Messinqin kələyi

Zamin HACI
zaminhaci@gmail.com

**Fantastik xəbər idi: dünən günorta "Azəristilik" dövlət idarəsi ilə "Azəriqaz" dövlət idarəsi arasında danışıqlar uğurla nəticələnmişdir, yaxın vaxtlarda Bakı qazanxanalarına qaz veriləcəkdir! Görürsənmi? Sən də deyirsən hökumət işləmir. Suveren dövlət belə olar. Yoxsa Afrikanın bəzi ölkələrində ümumiyyətlə "otopleniya" yoxdur. Ağacda yaşayırlar. Banan yeyirlər. Lüt gəzirlər, bir qəpiklik mentalitetləri qalmayıb.**

Ancaq çox ağır, üzücü, qanlı-qadalı proses oldu, gərək bunu mütləq yazaq. Noyabrın 15-də qızdırıcılar işə düşməli olsalar da, qaz idarəsi erməni kilsələrini qabağa salmışdı. Kimi minnətçi salırdılar, xeyri olmurdu. Energetika naziri Natiq müəllim deyirdi mənlik bir iş yoxdur. Qaz idarəsi deyirdi pulumuzu verin. İstilik idarəsi ATƏT-ə müraciət eləmişdi. Zakir müəllim deyirdi son nəfəsimizə qədər otaqları qızdıra bilərik, təki zəhmətkeşlər müraciət etsinlər. Baş nazir Artur müəllimi çətinliklə tapmışdılar, o isə demişdi: "Siz hardan bilirsiniz mənim baş nazir olduğumu? Düzünü deyin. Bunu sizə kim xəbər verib?" Mədəniyyət naziri bütün idarələrə göstəriş vermişdi ki, Şaxta babanın gəlişi münasibətilə Şən yolka tədbirlərini noyabrdan keçirməyə başlasınlar, uşaqlar yolkanın başına fırlanıb qızışsınlar.

Ümumiyyətlə, hər bir çətin görünən problemin əslində asan həll yolu var. «ASAN xidmət»i bu məqsədlə yaratmışıq. Ventili sağa burursan, qaz gedir istilikxanaya. Borc uydurma söhbət idi. Guya istilik idarəsi qaz idarəsindən kreditlə qaz almışdı? Kim kimədir ki? Bizdə hansısa xammalın, məhsulun hesabı-uçotu aparılırdısa, MTN generalı Çovdarov keçi fermasını hansı əsasla yaratmışdı? Çəpişləri debetə yazmışdı, yoxsa kreditə?

Deməli, bütün borc söhbətləri öncədən yalan idi. İstiliyi gec verdilər ki, uca millətimiz qarşıdan gələn neftsiz-qazsız soyuq illərə bir az hazırlaşsın. İmmunitet yaransın. Bir növ, hamını peyvənd elədilər, xəbərləri də olmadı. Əhsən, bu da dövlətçiliyin gücündən xəbər verir. Millət gərək başına hörülən corabın razmerini də bilməsin. Yoxsa bəziləri deyir: "corabdan iy gəlir". Get tullan, adə. Bəyənmirsən, çıx get ölkəmizdən.

Söz asan həll üsullarından düşmüşkən, dünən internetdə oxuduğum bir maraqlı elmi araşdırmanı sizinlə bölüşmək istərdim. Demək, bir alim var, bu qardaş şokoladın fəvvarə vurarkən nədən ortaya doğru əyildiyini öyrənib. Başqa bir alim isə çaynikin lüləyindən çay tökəndə bir neçə su damcısının stəkana yox, çaynikin divarına axmasının, üstümüzü, masanı batırmasının elmi əsaslarını araşdırıb, riyazi düsturla isbat edib ki, çaynikin lüləsini sürtünmə əmsalı aşağı olan bəzi maddələrlə sürtsək, çay damcıları aşağı axmaz, hamısı stəkana düşər. Çox gözəl insandır. Böyük bir problemi həll etmişdir.

Gərək insanın özündə də saflıq, təmizlik olsun, o zaman insanı aldatmaq, seçkiləri saxtalaşdırmaq çətinləşir. Sovet vaxtı kommunist rejimin reklam elədiyi bir lotu vardı - Volf Messinq. Bu adam guya xalqın fikrini oxuya bilirdi. Halbuki adi fokusçu, sirk ustası idi. Sadəcə, SSRİ-yə sovet adamının hər şeyə qadir olması haqda mif lazım idi, o üzdən Messinq əfsanəsini xaricə yaxşı qiymətə satırdılar. Messinq zalda çıxış edərkən onun çoxlu köməkçisi adamların içində gizlənirmiş. Hansısa əşyanı bir adamın öz cibindən çıxarıb salonda başqa yerdə gizlətməsi zamanı da Messinqə həmin köməkçiləri işarə verirmiş. Müəyyən şərti işarələr, göz-qaşla və s. İnsanın cibində, xüsusən kasıb sovet insanının cibində necə əşya ola bilərdi ki? Çox az sayda. Amma Messinq hər ehtimala qarşı cibdən çıxa biləcək 100-ə yaxın əşyanın "kodlaşdırma"sını edibmiş. Örnək üçün, gizli köməkçi sağ qaşını yuxarı qaldırsa, deməli, tamaşaçı dəsmal gizlədib. Messinq "dəsmal" deyirdi, insanlar da "pah, gör fikri necə oxudu" deyib mat qalırdılar. Messinqin şoular zamanı təsadüfi seçdiyi tamaşaçılar arasında isə bir qisim adamlar ola bilməzdi. Messinq buna qadağa qoymuşdu. Sizcə kimlər? Uşaqlar! Səbəb unikaldır: sən demə, uşaqların ciblərində ağıla gəlməyən min cür əşya ola bildiyi üçün Messinq bunu köməkçiləri ilə birgə öncədən işarələyə bilmirdi. Doğrudan da, uşağın cibindən siçan quyruğundan tutmuş armud cecəyinə qədər min cür şey çıxa bilərdi, gəl indi bunu "fikirdən oxu"...

Bunu yazmaqda elə bir xüsusi məqsədim yox idi, dedim uşaq kimi təmiz qəlbli olaq, bizi dolaya bilməsinlər.




# Kremlin Ankaraya qarşı yeni əsəb savaşı - Bakı da oyuna qatılır(?)

## Rusiyanın Türkiyəyə qarşı informasiya müharibəsini genişləndirmək cəhdlərinin təhlükəli pərdəarxası; Moskvanın yaxın hədəfində iki qardaş ölkənin arasını vurmaq planı da var...

**Türkiyənin Rusiyaya məxsus "Su-24" təyyarəsini vurması nəinki bölgədə, bütövlükdə dünyada yeni və həssas bir situasiya yaradıb. Siyasilərin, təhlilçilərin əsas diqqəti indi bu olaydan sonra Kremlin özünü necə aparacağı, Rusiya-Türkiyə, Rusiya-NATO (Qərb) münasibətlərinin hansı məcrada inkişaf tapacağı və nəhayət, bölgədəki və dünyadakı kövrək sabitliyi nə gözləməsi ətrafındadır.**

Rusiya hələ ki özünü çox aqressiv aparır. Anlaşılandır, çünki onun dirçəlməkdə olan imperiya qüruru NATO üzvü, tarixi rəqib Türkiyə tərəfdən zərbə yeyib. Bu üzdən yeni rus çarı Vladimir Putinin hansısa yolla öz pərtliyini kompensasiya etməyə çalışması tamamilə anlaşılandır.

Təbii ki, Türkiyəyə qarşı müharibə elan eləmək və ya hansısa sərt hərbi tədbirə əl atmaq şimal qonşumuz tərəfdən ağılsızlıq və hətta siyasi intihar olardı. Nədən ki, vurğulandığı kimi, regionda və dünyada vəziyyət olduqca mürəkkəbdir, balaca bir qığılcım qlobal fəlakətə gətirə bilər ki, bunun da altını hərbi analitiklərə görə ən birinci Rusiya çəkər.

İkinci yandan, Türkiyə sıradan bir dövlət, Ukrayna deyil ki, eyni ssenarini ona qarşı da tətbiq eləmək mümkün olsun - hərçənd heç Rusiya Ukraynada da hərbi müdaxilə ilə istəyinə tam nail olmayıb və geri çəkilmək zorunda qalıb.

Üçüncüsü isə beynəlxalq sanksiyalar altında sıxılan Rusiyaya indiki əlverişsiz iqtisadi durumda özünə yeni qaynar cəbhə açmaq əsla gərək deyil. Yeri gəlmişkən, iqtisadi sanksiyalardan əziyyət çəkən və büdcəsi kasadlaşan Rusiyanın Türkiyəni iqtisadi sanksiyalarla hədələməsinin özü bu mənada absurd görünür.

Sözsüz ki, Rusiyanın siyasi-hərbi isteblişmenti də bu və digər kontur-amillərin fərqindədir. Kreml başçısının son açıqlamalarından bunu sezməmək mümkünsüzdür. Məsələn, Vladimir Putinin hələ də Türkiyədən üzrxahlıq gözləməsini açıq dilə gətirməsi buna sübutdur. Hiss olunur ki, Moskva sakitləşmək və ilk öncə özünə zərəri olacaq iqtisadi embarqo hədələrindən geri çəkilmək üçün Türkiyənin yardımı ilə məqbul bir yol axtarır.

***

Ancaq rəsmi üzrxahlıq olmayacaq. Ən azı ona görə ki, belə bir addım Türkiyənin özünü Rusiya önündə kiçiltməsi, aşağılaması demək olardı. Əslində "Su-24" təyyarəsi elə Türkiyənin öz qürurunu qoruması, Moskvanın ona neçə vaxtdır aşağılayıcı münasibətini durdurmaq naminə vurulub.

Üzrün olmayacağını prezident Rəcəb Tayyib Ərdoğan Fransanın "France 24" telekanalına müsahibəsində aydın şəkildə bildirib. Üstəgəl, o, xəbərdarlıq edib ki, hava məkanı yenə pozulsa, Ankara eyni addımı atacaq. Bu harasıdır, Ərdoğan ardınca əlavə edib ki, əgər Türkiyə təyyarəsi Suriya ərazisində Rusiyanın ora göndərdiyi S- 400 sistemi tərəfindən vurularsa, bu, Ankaraya qarşı təcavüz hesab ediləcək və adekvat cavabı olacaq.

Hərçənd Türkiyə lideri müsahibəsində belə bir xəfif jest də edib ki, "təyyarənin Rusiyaya məxsusluğu öncədən bilinsəydi, Ankara fərqli də davrana bilərdi". Bu jest situasiyanı müəyyən qədər yumşaltsa da, belə görünür, Rusiya rəhbərliyi üçün, daxildə reytinqi kəllə-çarxa çıxan Putin üçün yetərli olmayıb. Hər halda, Kremlin aqressiv tonu əsasən qalmaqdadır.

***

Belə bir ton indi daha çox Rusiyanın qardaş ölkə əleyhinə apardığı təbliğat müharibəsində özünü qabarıq göstərməkdədir. Təhlükəli məqam həm də ondan ibarətdir ki, şimal qonşumuz informasiya savaşına Azərbaycanı da öz tərəfindən (!) qatmağa, iki qardaş ölkə arasında nifaq və etimadsızlıq toxumu səpməyə çalışır.

Misal üçün, dünən Rusiyanın aparıcı telekanallarından və rından olan NTV-də Türkiyə əleyhinə yayımlanan növbəti verilişdə belə bir fikir keçdi ki, guya Ankara təkcə Moskva ilə deyil, digər qonşularla - Yunanıstan, Bolqarıstan, İranla da (Suriya bəllidir) gərgin münasibətdədir və hətta ona ən yaxın olan Azərbaycan son insidentə görə İstanbuldakı konsulunu (Həsən Zeynalov - red.) geri çağırıb.

Halbuki bildiyimiz qədər, İstanbul konsulu ilə yanaşı, daha bir neçə ölkədəki Azərbaycan səfirləri rotasiya qaydasında geri çağırılıb. Ancaq gəl ki, məsələnin bu tərəfinə NTV əsla toxunmadı. Bu faktın özü Moskvanın yaratmaq istədiyi virtual anti-Türkiyə koalisiyasında Bakını da görmək istədiyinin təzahürü sayıla bilər.

Söz düşmüşkən, "Su-24" məsələsində Rusiyanın mövqeyini ən güclü şəkildə müdafiə edən ölkələr, gözlənildiyi kimi, İran *(prezident Həsən Ruhaninin açıqlamasını yada salın)*, Yunanıstan, Ermənistan və Türkiyəni sevməyən başqa daha bir neçə ölkədir.

***

İstənilən halda "Su-24" insidenti Azərbaycan üçün də kifayət qədər yeni və həssas bir situasiya yaradıb. Söhbət hətta xarici siyasətdə strateji seçimi tezləşdirmək imperativindən gedir. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun təcili Bakı səfəri, heç şübhəsiz, öncəliklə təzə situasiyanın doğurduğu bu imperativlə bağlı olub.

Təyyarə insidenti əlbəttə ki, Türkiyə və Rusiyanı öz dost-müttəfiqlərinin səfinə təzədən baxmaq və onu səf-nəzər eləmək zorunda qoyub. Məsələ bundadır. Odur ki, gözləyək görək, Türkiyə XİN başçısının ardınca Rusiyanın hansı rəsmisi (emissarı) paytaxtımıza təşrif buyuracaq.

**❑ Zahid SƏFƏROĞLU**

# Putinin deputatı keçmiş sovet respublikalarını ələ keçirməyə çağırdı

**Rusiya Dövlət Dumasının hakim Vahid Rusiya Partiyasından olan deputatı Yevgeni Fyodorov sensasion çağırışla çıxış edib. Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, Y.Fyodorov Rusiyanın keçmiş sovet respublikalarına münasibətdəki əsl niyyətini açıqlayıb.**



Y.Fyodorov Rusiya Federasiyasının məqsədinin keçmiş SSRİ respublikalarını ələ keçirmək və "Böyük Rusiyanın" ərazilərini 1945-ci il sərhədləri daxilində bərpa etmək olduğunu bəyan edib.

"Keçmiş Sovet İttifaqının ərazisi,- bu isə böyük Rusiya deməkdir,- 1991-ci ildə qanunsuz olaraq parçalanaraq pozulub. Bəlkə bunu bizdə - Rusiyada kimsə başa düşmür?" - deyə Y.Fyodorov müsahibəsində bildirib.

Dövlət Dumasının üzvü Rusiyanın Ukraynanın şərqindəki aqressiyasını "bu problemin həllinin tarixi texnologiyası" adlandırıb. Əlavə edib ki, bu, təkcə onun şəxsi mövqeyi deyil.

"Keçmiş SSRİ-nin bütün ərazisi beynəlxalq hüquqa görə, bizim vətənimizin, bizim millətin ərazisidir. Biz bu sərhədlərin daxilinə qayıtmalıyıq. Və biz bunu etməli olacağıq" - deyə Y.Fyodorov bildirib.

Deputat onu da vurğulayıb ki, NATO ilə vuruşmaq doğru olmazdı, amma Rusiyanın tarixi sərhədləri sanksiyalara və rusiyalıların həyat şəraitinin pisləşməsinə də bərpa olunmalıdır.

Y.Fyodorov bildirib ki, bu məqsəd işğalçılıq sayılmır, onun adı "müdafiə və bərpadır".

Qeyd edək ki, Y.Fyodorov Dövlət Dumasının dalbadal 4 çağırış deputatı olub. O, hazırda Dövlət Dumasının Büdcə və Vergi Komitəsinin, habelə hakim Vahid Rusiya Partiyası Mərkəzi Siyasi Şurasının üzvü, Rusiya Federasiyasının həqiqi dövlət müşaviri, "Milli-azadlıq hərəkatı" təşkilatının koordinatorudur.

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun noyabrın 26-da Bakıya qəfil səfər edərək, 27 noyabrda yüksək səviyyədə görüşlər keçirməsi həftənin əsas hadisələrindən biri oldu. Belə ki, Azərbaycanda hələ Avropa Şurası Baş Assambleyasındakı (AŞ PA) fəaliyyəti dövründən yaxşı tanınan M.Çavuşoğlunun budəfəki Bakı səfəri Türkiyə-Rusiya münasibətlərindəki gərginliklər səbəbindən tam fərqli qarşılandı.**



# Mövlud Çavuşoğlu Bakıdan Moskvaya mesaj verdi

## Türkiyə XİN başçısının Azərbaycan görüşlərində Türkiyənin Qarabağla bağlı mövqeyi də bir daha bəyan olundu; "İşğal altındakı torpaqlarının azad olunması məsələsində Azərbaycanın yanındayıq..."

İlk olaraq türkiyəli nazir və onun başçılıq etdiyi nümayəndə heyətini prezident İlham Əliyev qəbul edib. "AzərTAc"ın yaydığı məlumata görə, prezident öncə M.Çavuşoğlunu yeni hökumətdə yer alması münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. Dövlət başçısı daha sonra deyib: "Çox şadam ki, siz ilk səfəri Azərbaycana edirsiniz. Bu ənənə artıq neçə ildir ki, yaşayır. Həm dövlət, hökumət başçıları, həm nazirlər seçkilərdən sonra ilk səfəri qardaş ölkəyə edirlər. Fürsətdən istifadə edərək, Sizi bu yaxınlarda Antalyada uğurla keçirilmiş G20 Zirvə görüşü münasibətilə təbrik etmək istəyirəm. Bu, Türkiyənin çox böyük uğurudur. Türkiyə bir daha nümayiş etdirdi ki, böyük dövlətdir, böyük gücə malik olan bir dövlətdir. Şadam ki, qardaş ölkə Azərbaycanı bu toplantıya dəvət etdi. Bu, bir daha Türkiyə-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirir və həm bizim xalqlara, həm dünyaya göstərir ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir". İki ölkə əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan prezident onların bütün istiqamətlərdə uğurla əməkdaşlıq etdiyini bildirib.

**Xarici işlər naziri Mövlud Çavuşoğlu da öz növbəsində prezidentə təşəkkür edib. Sitat:** "Xarici işlər naziri olaraq vəzifəyə təyin edildikdən sonra ilk səfərimi qardaş Azərbaycana etməkdən, ənənələrimizi davam etdirməkdən böyük qürur duyduğumu vurğulamaq istəyirəm. Sizi də 1 noyabr parlament seçkiləri münasibətilə təbrik etmək istəyirəm". M.Çavuşoğlu Azərbaycanın G20-nin Antalyada keçirilən Zirvə toplantısında iştirakına görə də dövlət başçısına minnətdarlığını bildirib. Prezident İlham Əliyevin G20-nin Zirvə toplantısında iştirakından qürur hissi keçirdiyini deyən Türkiyə XİN rəhbəri prezidentin bu cür mötəbər tədbirdə beynəlxalq məsələlərlə bağlı söylədiyi dəyərli fikirləri yüksək qiymətləndirdiyini vurğulayıb. Deyib ki, Azərbaycan belə bir toplantıda iştirak etməklə Türkiyənin mövqeyini daha da gücləndirdi.

**Görüşdə hər kəsin xüsusi olaraq gözlədiyi Ankara-Moskva münasbətlərindən də bəhs olunub. Mətbuat üçün rəsmi açıqlamada bildirilir:** "Söhbət zamanı dövlət başçısı Türkiyə ilə Rusiya arasında münasibətlərdə yaranmış gərginliyə toxunaraq qeyd etdi ki, Azərbaycan hər iki ölkə ilə tarixən sıx əlaqələrə malikdir və bu gərginlikdən təəssüf və narahatlıq hissi keçirir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfi Türkiyə-Rusiya münasibətlərindəki gərginliyin azaldılması və aradan qaldırılması istiqamətində səylərini göstərməyə hazırdır".

Daha sonra qonağı baş nazir Artur Rasizadə qəbul edib. Görüş zamanı Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyi, bölgədə sabitliyin qorunub saxlanması, regional və beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsi və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**M.Çavuşoğlunun növbəti görüşü Milli Məclisin sədri Oqtay Əsədovla olub. Görüşdə Milli Məclisin sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinə keçirilən seçkilərdə AKP-nin qələbəsi münasibətilə təbriklərini çatdırıb. Sədr bildirib ki, ölkələrimiz arasında qarşılıqlı rəsmi səfərlərin sayının artması əlaqələrimizi daha da möhkəmləndirir:** "Son zamanlar Türkiyədə baş verən terror hadisələrindən biz də narahatlıq hissi keçiririk".

**Türkiyəli nazir parlamentarilərimizin beynəlxalq qurumlardakı birgə əməkdaşlığını yüksək qiymətləndirib. O, Türkiyənin bundan sonra da Azərbaycanın yanında olacağını qeyd edib. Milli Məclisdəki görüşdə də Türkiyə-Rusiya qarşıdurması diqqətdən kənarda qalmayıb. Əsədov deyib ki, Azərbaycan Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsindən narahatdır:** "Biz iki ölkə arasındakı münasibətlərin düzəlməsi üçün əlimizdən gələni etməyə hazırıq. Azərbaycan bu məsələnin müsbət həlli üçün Rusiya ilə Türkiyə arasında vasitəçilik etməyə hazırdır".

**Türkiyəli nazir M.Çavuşoğlu isə Azərbaycanın bu cür mövqeyinə görə spikerə təşəkkür edib. Sitat:** "Türkiyə beynəlxalq hüququn tələblərinə əsaslanan addım atıb. Türkiyə gərginlik tərəfdarı deyil. İnşallah, biz bu cür vəziyyəti diplomatik yolla dəf edəcəyik. Ancaq eyni mövqeyi Rusiyadan da gözləyirik".

Onun Azərbaycan səfəri çərçivəsində sonuncu görüşü həmkarı Elmar Məmmədyarovla olub. Daha sonra isə nazirlər XİN-də mətbuat üçün brifinq keçiriblər.

**"Yeni Müsavat"ın əməkdaşının brifinqdən verdiyi məlumata görə, Azərbaycan XİN başçısı E.Məmmədyarov türkiyəli həmkarının Bakı səfərində qeyri-adiliklər axtarılmasına ehtiyac bilməyib:** "Azərbaycan və Türkiyə arasında bir adət-ənənə yaranıb ki, prezident, baş nazir, yaxud nazirlər seçiləndən sonra ilk olaraq Bakıya, yaxud Ankaraya qarşılıqlı səfərlər həyata keçirilir. Ona görə də mən əziz dostum və qardaşımı Bakıda görməkdən çox şadam". E.Məmmədyarov ikitərəfli və çoxtərəfli görüşlərin keçirildiyini və aktual məsələlərin müzakirə olunduğunu deyib: "Mən öz tərəfimdən Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların son vəziyyəti ilə bağlı Mövlud Çavuşoğlunu məlumatlandırdım. Son aylarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov əvvəlcə Azərbaycana gəlmişdi, sonra Ermənistana getdi. O, danışıqları intensivləşdirməyi təklif edib. Ancaq hamı qəbul edir ki, ən böyük problem torpaqların işğal altında olmasıdır. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarında yerləşməsi təhlükəsizlik, sosial-iqtisadi baxımdan bütün regiona problem yaradır. Baxmayaraq ki, Rusiya XİN başçısı İrəvana tək getmişdi, amma təklifləri həmsədr ölkələrin adından verib. Sonuncu dəfə həmsədrlər Azərbaycana gələndə təklif keçirilsin. Biz ilin sonuna kimi bu görüşün keçirilməsinə razılıq vermişik və həmsədrlər də bunun üzərində işləyirlər".

**Azərbaycan XİN başçısı enerji məsələlərinin də əsas müzakirə mövzularından olduğunu qeyd etdi.** "Azərbaycan və Türkiyə enerji məsələlərində eyni mövqedədir. TANAP layihəsi vaxtında yerinə yetirilir. Region üçün çox önəmli olan və əlaqələrin daha da genişləndirilməsinə xidmət edəcək Bakı-Tiflis-Qars dəmir yolu xəttinin inşası uğurla həyata keçirilir". XİN başçısı bir gün öncə Tiflisdə olarkən gürcü həmkarı ilə də bu barədə danışdıqlarını vurğuladı. E. Məmmədyarov ilin sonunadək 3 ölkənin xarici işlər nazirlərinin görüşünün təşkili barədə razılığın əldə olunduğunu bildirdi: "Mövlud bəyin də razılığını aldıq. İqlim şəraiti yaxşı olsa, dəmir yolunun tikinti aparılan yerinə də gedəcəyik. İnanırıq ki, çox önəmli olan bu dəmir yolu xətti bu il olmasa da, gələn il fəaliyyətə başlayacaq. Əminəm ki, bu xətt Azərbaycan-Türkiyə əməkdaşlığını yeni mərhələyə çıxara bilər".

**Mövlud Çavuşoğlu isə jurnalistlərə açıqlamasında Azərbaycanda, Bakıda olmasından dolayı özünü xoşbəxt saydığını bildirdi. Prezident, baş nazir və spiker tərəfindən qəbul edilməsinə görə təşəkkür edən nazir Azərbaycanın G-20-də iştirakından, hər iki ölkədə keçirilən seçkilərdən bəhs etdi, münasibətlərdən məmnunluğunu ifadə etdi:** "Azərbaycanla Türkiyə arasında hər sahədə münasibətlər mükəmməl səviyyədədir. İki ölkənin iştirak etdiyi layihələri müvəffəqiyyətlə icra edirik".

**M. Çavuşoğlu bildirdi ki, tez bir zamanda Bakı-Tiflis-Qars layihəsi də uğurla həyata keçirilərək:** "Türkiyədə layihəni icra edən şirkətin hüquqi problemi səbəbindən gecikmə oldu. Qısa vaxtda bunu da tamamlayacağıq. Tək hədəfimiz Bakı-Tiflis-Qars deyil. Çinə qədər olan xətdə Azərbaycan böyük rol oynayacaq. Üçlü əməkdaşlıq mexanizmləri də uğurla davam etdirəcəyik. Türkiyə-Azərbaycan-Türkmənistan görüşü oktyabrda baş tutmadı, amma 2016-cı ildə baş tutacaq. Bizim hər mövzuda Azərbaycanın yanında olduğumuzu Azərbaycan bilir. Xüsusilə Qarabağ məsələsində və Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması məsələsində Azərbaycanın yanındayıq. Yeni gələn təkliflərin Minsk Qrupunun təklifi kimi rəsmiləşməsini arzu edirik. Biz həmişə bu prosesə konstruktiv şəkildə dəstək veririk. Minsk Qrupunun daha fəal olması üçün konstruktiv şəkildə tənqid edərək bu işə töhfə verməyə çalışırıq. Minsk Qrupunu Dağlıq Qarabağ münaqişəsinin həllində aktiv olmağa çağırırıq".

**Türkiyə XİN başçısı həmçinin Azərbaycanla birgə həyata keçirilən enerji layihələrinə toxunaraq bildirdi ki, əməkdaşlıq bundan sonra da davam edəcək. Azərbaycan ziyarəti zamanı ikitərəfli münasibətlərin xüsusi müzakirə edildiyini, planlaşdırılan layihələrin gerçəkləşdiyini, TANAP mövzusunda heç bir sıxıntının olmadığını deyən XİN başçısı Bakının Nardaran qəsəbəsində baş verən qanlı hadisələri "terror" adlandırdı:** "Azərbaycanda baş verən terror hadisəsində iki polisin şəhid olması ilə bağlı Azərbaycana başsağlığı veririk".

**Nazir bildirdi ki, Azərbaycanla Türkiyə arasında terrora qarşı mübarizə sahəsində də işbirliyi var:** "Biz Azərbaycana bu məsələdə də dəstək göstərəcəyik. Təəssüf ki, Türkiyənin belə bir təcrübəsi var. Ümid edirik ki, Türkiyə və Azərbaycanda bir daha terror olmayacaq".

**XİN başçısı Qarabağla bağlı qardaş ölkənin dəstəyini bir daha ifadə edib:** "Biz Azərbaycanın razı olduğu hər məsələdə, xüsusilə də Qarabağ, Azərbaycan işğal edilmiş torpaqlarının geri qaytarılması məsələsində hər zaman qardaş Azərbaycanın yanındayıq, yanında olmaqda davam edəcəyik".

Yeri gəlmişkən, baş nazir Əhməd Davudoğlunun da Azərbaycana səfəri gözlənilir. Bu barədə M.Çavuşoğlu azərbaycanlı həmkarı Elmar Məmmədyarovla Bakıdakı görüşü zamanı bildirib. Onun sözlərinə görə, baş nazirin Bakıya səfəri dekabrın 3-nə nəzərdə tutulub. Bu, Davudoğlunun Türkiyə hökumətinin yeni tərkibinin təsdiq olunmasından sonra ilk rəsmi səfəri olacaq.

**Bundan sonra nazir E.Məmmədyarov zamanın az olduğunu əsas gətirib brifinqi yekunlaşdırdı:** "Təəssüf ki, Mövlud bəy təcili Ankaraya dönməlidir, çünki nazirlərin iştirakı ilə ilk toplantısına qatılacaq. Ona görə biz sualları qəbul edə bilmirik".

Nazirlərin brifinqdə Rusiya-Türkiyə münasibətlərinə toxunmaması gözlənilməz olsa da, aldığımız məlumata görə, bu, razılaşdırılmış protokol qaydasıdır. Sadəcə, Ankara və Bakı Rusiyanı qıcıqlandıra biləcək hansısa ehtiyatsız ifadələrin səslənməməsi üçün məsələnin üstündən sükutla keçməyə qərar veriblər.

**Politoloq Elxan Şahinoğlu da bildirdi ki, bu, çox həssas mövzudur:** "Ankara Moskva ilə münasibətləri normallaşdırmaq istəyir. Bunda rəsmi Bakı da maraqlıdır. Ona görə də səhv başa düşüləcək fikir bildirmək istəmirlər. Çavuşoğlunun səfəri Rusiya hakim və siyasi dairələrində qıcıq oyadıb. Ümumiyyətlə, bundan sonra Rusiyada anti-Azərbaycan ritorikası da arta bilər. Çünki Rusiyanın hakim və siyasi dairələri Türkiyənin bölgədəki müttəfiqlərini də hədəf götürəcəklər".

**❑ Elşad PAŞASOY**



# Nardaran dərsi

Aygün MURADXANLI

**Həbs və təqiblərə səbəb olan hökumət-vətəndaş qarşıdurması, ya da illərlə sabitliyi pozmaq üçün yetişdirilən qüvvələrin açıq mübarizəyə başlaması çox arzuolunmazdır. Bunlar toplumu bölən, inkişafdan qoyan, sağlam dayaqları zədələyən məsələlərdir. Hələ ən azını deyirik. Ən pis halda nəticə sonu görünməyən vətəndaş savaşı ola bilər. Nardaranda ötən gün baş verən proses göstərdi ki, üz-üzə duran tərəflər bir-birinə qarşı çox aqressivdirlər.**

"Nardaran" indinin problemi deyil. İllərdir bu kənd Azərbaycandan ayrı yaşayır. Az qala 20 ildir Nardaran əhalisinin bəlli bir qismi açıq-aşkar "bizim rəhbərimiz imam Xamneyi ağadır" deyir. İnternet üzərindən axtarış verib Aşura günü Nardaran pirində çəkilən videogörüntüləri izləsəniz, bu şüarı hər il yenilənən gəncliyin dilindən eşidəcəksiz.

Axı niyə dünyəvi dövlətdə yaşayan fərd insan haqlarının ən kobud şəkildə pozulduğu, haqqını tələb edənlərə qarşı ortaçağ cəza metodlarının işlədildiyi Tehran rejiminin tərəfdarı olsun? Niyə ölkəsinin, xalqının, məhəlləsinin, ailəsinin rifahını, gələcəyini təhlükəyə ataraq yaşadığı dövləti özünə düşmən elan eləsin? Bir insan bu qədər cahil olarmı? Ümumiyyətlə, bunu edən cahillərdimi? Məncə, yox. Cahillər, sadəcə, alətdi.

Müstəqilliyin ilk illərində Azərbaycanın güneyində, Bakı kəndlərində, o sıradan Nardaranda çox sayda İran mollası, Tehran missioneri görmək olardı. Aylarla, bəziləri hətta illərlə kəndlərdə yaşayır, ətraflarına xeyli tərəfdar toplayır, gəncləri İrana "dini təhsil" almağa göndərirdilər. 1997-ci ildə mərhum prezident Heydər Əliyevin göstərişi ilə onlara qarşı geniş əməliyyat keçirildi. Noyabrın 26-dakı kimi yox... səssiz-küysüz, qansız. Səhəri oyandıq ki, qonum-qonşudakı mollalar "qeybə çəkilib". Gecə ilə onları yaşadıqları evlərində tutub bir də İran sərhədində buraxmışdılar...

Qısa müddət sakitlik oldu. Çox qısa. Ardınca Tehran "dini təhsil" verib Azərbaycana göndərdiyi bu ölkənin pasportunu daşısa da, İranın maraqlarına xidmət edənlər arasında dayaqlar axtarmağa başladı. Məhz onların sadə insanların beynini zəhərləməsinin hesabına hər dəfə Nardaran ziyan çəkdi. Hökumət qüvvələri ilə dəfələrlə qarşıdurma yarandı, polisi silahla, dəyənəklə, daşla qarşıladılar, ölən, həbs edilən oldu.

Nardaranlıları dəfələrlə dinləmişəm. Deyirlər ki, biz dini baxışlarımıza görə təqib olunuruq, qadınlara hicab problemi yaradılır, ona görə qızlar dərsə gedə bilmir, işsizlikdi, bizi işə götürmürlər və s. Bu sözləri eşidəndə dəfələrlə qəzetçiliyi bir kənara qoyub onlara opponentlik eləmişəm. Nardaranlılar dini baxışlarına görə necə təqib olunur ki, hər il Aşurada ölkənin ən böyük mərasimi Nardaranda keçirilir və ölkənin hər yerindən bura insanlar gəlir, hər cümə insanlar namazlarını sərbəst qılır, insanlar şəriət qaydaları ilə yaşayır? Qadınlara hicab problemi ilə qismən razılaşmaq olar, çünki başörtülü qadınların heç şəxsiyyətlərini təsdiq edən sənədləri yoxdur. Nardaranlı qızların başörtüsünə görə təhsildən kənarda qalmasını demək isə dünyanın ən böyük riyakarlığıdır. Bu kəndə bələd olanlar bilir, Nardaranda heç kim qızını oxutdurmur. 10 yaşına qədər bəlkə məktəbə göndərərlər, ondan sonra Quran dərsi, hicab və ev. Vəssalam. İşsizliyə gəlincə, bu təkcə Nardaranın problemi deyil ki?

Bir dəfə aksiyada işsizliklə bağlı bar-bar bağıran birindən soruşdum - kənd sakinlərindən kim, hansı iş üçün hara müraciət edib və cavab almayıb? Ümumiyyətlə, bu kənddə işsiz müəllim, həkim, hüquqşünas, mühəndis, mühasib... var? Adam rüşvətdən, korrupsiyadan danışdı, amma kadrları olub-olmadığını demədi. O demir, biz deyək. Nardaran təhsil səviyyəsinə görə ən aşağı yerlərdən birini tutur. Məktəblərin yuxarı sinifləri boşdur. 5-10 təhsilli var, onlar da kənddən uzaqlaşıb. Dünyəvi dəyərlərlə yaşamaq istəyən insanlar kəndin basqısına dözə bilmirlər. Dini siyasətə alət eləmək istəyən rejimlər üçün bundan münbit şərait? Təhsillə, mədəniyyətlə işıqlanmayan insanı adını din qoyub qaranlığa sürükləməyə nə var?

Gələk məsələnin, belə demək mümkünsə, rəsmi hissəsinə. Hökumətin, dövlətin birinci məsuliyyəti vətəndaşını qorumaqdır. Ordunun da, polisin də, kəşfiyyatın da əsas missiyası budur. Hökumətin missiyalarından biri də ölkə qanunlarına tabe olmayan, xarici ölkələrin maraqlarına xidmət edən, vətəndaşların qanuni qaydada cəzalandırmaqdır. Ortada ölkənin, dövlətin təhlükəsizliyi məsələsi varsa, qətiyyət vacibdir. Ancaq bu məsələni qanlı qarşıdurmaya qədər gətirmək də hökumətin məsuliyyətidir. Bu məsuliyyəti daşıyanlar hansı səbəbdən xarici dövlətlərlə işbirliyi şübhə doğuran şəxslərin ilkin mərhələlərdə zərərsizləşdirmədiklərinin hesabatını verməlidirlər.

Nardaran əhalisi tarixən dini adətlərlə yaşayıb. Namazlarına, çarşablarına, şəriət tələblərini yerinə yetirmələrinə heç ateist sovet rejimi də mane ola bilməyib. Ancaq bu kənddə bir ağsaqqallıq institutu da olub. Bu institut toplum içərisindəki problemləri çözüb, yeri gələndə vətəndaşla hökumət arasında vasitəçi olub. O namazqılan kişilərin canamazlarının üstündə möhür, böyründə təsbeh olub, tapança, qumbara yox. Son 20-25 ildə Nardaranda həm də bu institut dağıdılıb. Kənardan ixrac olunan "din" bu gələnəyin axırına çıxıb. Məsələnin pis tərəflərindən biri də budur. Bu institut dağıdıldığına görə Nardarandan "Hacı Taleh azad edilməsə, ölkəni qan götürəcək" mesajlarının yiyələrinə yerini göstərən, onları bədbəxt olmaqdan qurtaran kimsə yoxdur.

**Allah Azərbaycan dövlətinin bütövlüyü uğrunda həyatını itirən bütün şəhidlərə rəhmət eləsin.**



# Müxalifət dialoq təşəbbüsündə israr edir

## Hakimiyyətdən reaksiya hələ ki verilmir

**Azərbaycanın bir sıra müxalifət partiyaları hakimiyyətlə müxalifət arasında bu ilin əvvəlində başlanan dialoqun bərpa olunması və daha nəticəli şəkildə keçirilməsini istəyir. Artıq bu barədə Azərbaycan Demokrat Partiyası rəsmi açıqlama ilə çıxış edib və hakimiyyəti dialoq təşəbbüsü ilə çıxış eləməyə çağırıb. Ancaq hələ ki iqtidardan dialoq çağırışlarına reaksiya yoxdur.**

Belə olduğu halda meydana sual çıxır ki, dialoq təşəbbüslərinin əhəmiyyəti qalırmı?

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, iqtidarla müxalifətin birləşib cəmiyyəti kataklizmlərdən xilas etməkdən başqa müsbət bir yol yoxdur: "Təəssüf ki, iqtidarda da, müxalifətdə də dialoqun əleyhinə olanlar da var. Mən hələ bu günə qədər ölkədə ciddi nəticələrə gətirib çıxaran real siyasi dialoq görməmişəm. Yığışıb söhbət eləməyimiz dialoq demək deyil. Dialoq real nəticəli iş deməkdir. Məni narahat eləyən odur ki, hadisələr həm beynəlxalq, həm ölkədaxili situasiya ilə bağlı proseslər çox mənfi istiqamətdə inkişaf edir. Amma bütün cəmiyyət başını aşağı salıb gedir. Lakin mən son ana qədər iqtidarla müxalifət arasında real dialoq olmasında israr edəcəyəm. Hakimiyyətin hələ ki bu çağırışlara heç bir reaksiya verməməsinin özü yanlışdır. Əvvəllər hər şeyə reaksiya var idi. Son vaxtlar reaksiya yoxdur. Bu aqoniya vəziyyətidir və nə iqtidar, nə müxalifət, nə cəmiyyət üçün arzuolunan durum deyil.

Nardaranda baş verən hadisələr Azərbaycanda iqtidarla cəmiyyətə təsir edə biləcək demokratik müxalifətin arasında dialoq mühitinin, əməkdaşlıq mühitinin yaranmasının zəruriliyini bir daha ortaya çıxardı".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn isə qeyd etdi ki, iqtidar-müxalifət dialoqları ümummilli məsələlərdə həmişə faydalı və zəruri olub:** "Hazırkı durumda isə bunu iqtidar-müxalifət dialoqu anlamında aktual saymıram. Dialoqla bağlı təşəbbüs iqtidar tərəfindən gəlməlidir. Hazırda belə bir təklif edilməyib".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev isə bildirdi ki, iqtidar-müxalifət dialoqu seçkilərdən sonra ölkədə yaranmış siyasi sükut vəziyyətinin yeganə çıxış yoludur:** "Seçkilərdən öncə bizim seçki bloku tərəfindən başladılan dialoq seçki ərəfəsində birdən-birə dayandırıldı. Hakimiyyət seçkiöncəsi birtərəfli qaydada dialoqdan imtina etdi. Siyasi tərəflər arasında normal münasibətlərin olmasının tərəfdarıyıq. Bizim üçün təmas tərəflərinin kim olması və gündəlikdə duran məsələlər mühümdür. Bu şərtlər daxilində biz ölkədəki siyasi müşkülləri danışıqlar yolu ilə həll edilməsinin tərəfdarıyıq. Dialoq bir tərəfin maraqlarına xidmət edib, digər tərəfin aldadılması məqsədini güdməməlidir".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə dedi ki, iqtidarla müxalifət arasında dialoqa ehtiyac var. Hər halda, son vaxtlar ölkədə və dünyada cərəyan edən prosesləri götür-qoy edən hakimiyyət də dialoqun vacibliyi qənaətinə gələcək. Ölkədə ümummilli məsələlərdə ortaq məxrəcə gəlmək üçün həmişə zəmin olmalıdır. Bunu isə dialoq mühiti yaradır:** "Növbəti dialoq məsələsi hələ ki yalnız mətbuatda yer alır. Bunun reallaşması üçün müzakirələr aparılmalıdır. Dialoqa siyasi müxalifətdən başqa iqtidarın da marağı olmalıdır. Regionda baş verən son hadisələr ölkədə müəyyən fikir təmərküzləşməsini tələb edir. Dialoqun müsbət tərəfləri qabardılmalı, cəmiyyətlə məsləhətləşmələr aparılmalıdır".

❑ E.SEYİDAĞA

# "Mətbuatın başının üstündə Domokl qılıncı asılıb"

## Mehman Əliyev: "Media üzərində nəzarəti gücləndirmək əsas məqsəddir"

**Xəbər verdiyimiz kimi, Ədliyyə Nazirliyinin Kollegiyası "Mətbu nəşrlərin təsis edilməsi barədə müraciətlərin qəbulu və uçotunun aparılması Qaydaları"nı təsdiq edib. Qaydalara əsasən, il ərzində iki dəfə məhkəmə xəbərdarlığı alan mətbu nəşrin fəaliyyətinin dayandırılması mümkün olacaq.**



Mehman Əliyev

Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən kütləvi informasiya vasitəsinin xarici ölkənin dövlət orqanı, fiziki və ya hüquqi şəxsi tərəfindən qanunazidd şəkildə maliyyələşdirilməsini aşkar etmiş qurumların məlumatları daxil olduqda, kütləvi informasiya vasitəsi məhkəmənin qərarı ilə qərəzli yazılara görə il ərzində iki dəfə məsuliyyətə cəlb edildikdə mətbu nəşrin istehsalına və yayımına xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırılır.

Bundan başqa, son günlər MTN olayları fonunda bəzi sayt rəhbərlərinin Respublika Prokurorluğuna çağırılaraq xəbərdar olunması da media adına ciddi olaylardan biri sayılır. Onlara bəzi mövzulara toxunmamaq, istintaq getdiyi müddətdə dəqiqləşdirilməmiş xəbərlər yazmamaq tapşırığı verilib.

Hər iki hadisə son bir həftədə baş verdiyi üçün bunun mətbuat adına ciddi hadisə olduğunu nəzərə almaq lazımdır. Media onsuz da az sayda qalmış nəfəsliklərindən daha birindən məhrum olurmu? Son qərar qəzetlərin istənilən an bağlana biləcəyi anlamına gəlir?

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev jurnalistlərin prokurorluğa çağırılması, ümumən MTN olayları ilə bağlı media orqanlarına qarşı bir yürüşün həyata keçirilməsini təsadüf hesab etmir. Onun sözlərinə görə, ilkin olaraq, Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənov bu mövzuda "AzərTAc"a açıqlama verdi, onun ardınca isə Mətbuat Şurası media orqanlarının iştirakı ilə tədbir keçirdi:** "Bunların hər ikisi mətbuata mesajdır ki, bu mövzudan az yazın. Onlar bu mövzunun az yazılmasını istəyirlər. Əvvəlcədən bunun yazılmasından məmnun idilər, çünki onlara bu lazım idi. Bu yazılarla cəmiyyətə mesaj ötürmək istəyirdilər ki, MTN-də cinayətkar qrup var və biz onlara qarşı tədbir görürük. Necə deyərlər, "biz işləyirik, xəbərimiz yoxdur, amma araşdırırıq". Daha sonra isə medianın bu proseslərin dərininə girməsindən narazı qaldılar. Bu, birbaşa hakimiyyətin marağındadır ki, mövzu yazılmasın"...

**Müsahibimiz həmçinin Ədliyyə Nazirliyi kollegiyasının son qərarına da şərh verdi. Dedi ki, bu, daha çox fəaliyyətini davam etdirən media orqanlarına "sizi istədiyimiz vaxt bağlatdıra bilərik" mesajının verilməsidir:** "Məhkəmə əllərindədir. Bu hakimiyyət bunu edir. Bildirirlər ki, hər an sizinlə bağlı qərar çıxa bilər. Domokl qılıncı başının üstündən asıla bilər. Mətbuatı cilovlamaq, mətbuata qarşı nəzarəti gücləndirmək əsas məqsəddir. Bir nazirlikdə rəhbər şəxslər səviyyəsində ciddi pozuntular olanda o nazirlik niyə bağlanmır? O nazirliklərin, məhkəmələrin nə qədər pozuntuları var. Amma bu qapatmalar, cəzalandırmalar yalnız mediaya şamil olunur. Konstitusiya qarşısında hamının eyni məsuliyyəti yoxdur. Vəziyyət gündən-günə pisləşir. Hakimiyyət narahatdır, daha çox aqressiv addımlar atır".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015

# Rusiyanın Azərbaycana verdiyi təkliflərin arxasında duran niyyətlər...

**Xarici işlər naziri Elmar Məmmədyarovun Tiflisdə "Şərq tərəfdaşlığı" ölkələrinin VI Qeyri-rəsmi Nazirlər Dialoqu Toplantısındakı çıxışı zamanı səsləndirdiyi bəzi fikirlər suallar yaradıb. XİN rəhbəri bildirib: "Hazırda Rusiya tərəfindən irəli sürülmüş təkliflər üzərində işləyirik".**

Şimal qonşumuzun təkliflərinin detallarının açıqlanmaması bir sıra sualların yaranmasına səbəb olub. Əsas məsələlərdən biri təkliflərin Rusiya-Türkiyə münasibətlərində son günlərdə yaşanan gərgin münasibətlərlə bağlıdır. Hər iki ölkə üçün Azərbaycanın strateji dövlət olduğu hər kəsə məlumdur. Bu baxımdan gələcəkdə münasibətlər gərginləşərsə, ölkəmizin mövqeyi də bu məsələdə mühüm rol oynayacaq. Məhz buna görə də Rusiyanın Türkiyə ilə münasibətlərinin gərginləşməsindən sonra Azərbaycana təklif verib-vermədiyi maraq doğurur. Təkliflərin nədən ibarət olması isə əsas müzakirə mövzusuna çevrilən məsələdir.



**Sülhəddin Əkbər:** "Ukrayna böhranından sonra Kreml keçmiş sovet ərazisində təşəbbüsü ələ almaq istəyir"



**İlham İsmayıl:** "Bu təkliflərdən müsbət heç nə gözlənilmir"

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər təkliflərin mahiyyətinin nədən ibarət olması barədə fikir bildirməyin çətin olduğunu söylədi:** "Məsələnin mahiyyəti bundan ibarətdir ki, Ukrayna böhranından sonra Rusiya keçmiş sovet ərazisində təşəbbüsü ələ almaq istəyir. "Yad ünsürlər"i öz tərkibindən çıxarmağa çalışır. Əsas məsələlərdən biri də regiondakı konfliktlərdir. Rusiya regional konfliktlərin həllini öz kontroluna almaq istəyir. Ukraynada Krımın bir hissəsini azad edib. Gürcüstana təcavüz edib, Abxaziya və Cənubi Osetiyanı işğal edib. Osetiyanı ilhaq edərək, öz bazalarını qurub. Azərbaycanın Gürcüstana keçən nəqliyyat, enerji yollarını təhdid edir. Çalışırlar ki, Azərbaycan proseslərdə hərbi mövqedən çıxış etsin. Əks təqdirdə, Ukrayna və Gürcüstan kimi, təcavüz etmək zorunda qalacaq. Bu baxımdan Rusiyanın təkliflərinin arxasında duran niyyətlərlə bağlı onu deyə bilərəm ki, sülhməramlı qüvvələr adı altında Azərbaycanda legitim hərbi iştirakını təmin etmək istəyir. Dünyada baş verən proseslərin fonunda Rusiyanın hərbi konfliktinin Azərbaycan-Ermənistan arasındakı problemlərin həllində maraqlı olmadığı qənaətindəyəm. Neçə ki, Cənubi Qafqaza Rusiyanın təsiri güclüdür, bu problemin həlli mümkün deyil. Konflikt, sadəcə, ağırlaşa bilər. Əgər Rusiya sülhməramlı qüvvələr adı altında Qarabağa öz silahlı qüvvələrini yeridərsə, bu, Qarabağın birdəfəlik itirilməsi deməkdir. Bu da Azərbaycanın müstəqilliyinin itirilməsi anlamına gəlir. Azərbaycan bununla həm öz müstəqilliyini, həm də Qarabağı itirəcək. Hakimiyyət bunu anlamalıdır. Beş rayonun azad edilməsindən Azərbaycan şirnikləşə bilər. Bu da Qarabağın itirilməsinə gətirib çıxarar".

**Sabiq MTN zabiti, politoloq İlham İsmayıl hesab edir ki, Rusiyanın təklifləri özlərinə daha çox sərf edir:** "Azərbaycanın Xarici İşlər Nazirliyinin rəhbəri diplomatik cavab verib ki, təkliflər üzərində işləyirik. Birbaşa ölkəmizin maraqlarına cavab verməş təkliflər olsaydı, diplomatik cavab vermədən müsbət reaksiya verərdi. "Şərq tərəfdaşlığı"nda Azərbaycanın xeyrinə olmayan məsələlər var. Rusiya kimi dövlətdən birdən-birə imtina məsələsi çox çətindir. Problemlər yarada bilər. Bu baxımdan Elmar Məmmədyarovun diplomatik cavabı düzgündür. Bu cavabları illərlə vermək olar".

**İ.İsmayıl "Şərq tərəfdaşlığı"nda Rusiyanın Dağlıq Qarabağla bağlı heç bir təklifinin olmadığını qeyd etdi:** "Həmişə olduğu kimi, Rusiyanın bu məsələdə bir fikri olacaq ki, hər iki dövlət danışıqlarla razılığa gəlsinlər. Bu təkliflərdən müsbət heç nə gözlənilmir. Təkliflər indinin deyil. Çoxdan bu təkliflər Rusiya tərəfindən verilib. Qazaxıstan, Belarus və Ermənistana verilən təkliflər kimidir. Azərbaycandan başqa digər ölkələrə də belə təkliflər verilib. Diplomatiya rəhbərimizin fikirləri dolayı yolla bunu təsdiqləyir. Rusiya-Türkiyə münasibətlərində Azərbaycana xoş olmayan nəzərlərlə baxırlar. Onların reaksiyalarından bu hiss olunur".

❑ **Cavanşir ABBASLI**

# Azlıqda qalan Rusiya tərəfdarları...

**Türkiyənin Rusiya təyyarəsini vurması və bundan sonra iki ölkə arasında gedən söz savaşı Azərbaycan ictimaiyyəti tərəfindən də diqqətlə izlənilir. Əminliklə demək olar ki, Rusiya və Türkiyədən sonra bu məsələnin son dərəcə həssaslıqla müzakirə olunduğu üçüncü ölkə Azərbaycandır. Demək olar ki, Rusiya təyyarəsinin vurulması ilə bağlı qızğın mübahisələr gündəmdəki digər hadisələri də unutdurub.**



**"Elxan Şahinoğlu:** "Cəmiyyətin də sifarişi budur ki, biz Türkiyənin yanında olmalıyıq"



**Fazil Mustafa:** "Bəzi insanlar qorxduqlarına və ictimai qınağa görə bu məsələdə Rusiyanın mövqeyini dəstəkləmədilər"

Ancaq bu mübahisə-müzakirələr həm də onu ortaya çıxartdı ki, Rusiyanın Azərbaycan cəmiyyətindəki dayaqları çox zəifdir. Əhalinin demək olar ki, 90 faizi bu məsələdə Türkiyəni dəstəklədi. "Yeni Müsavat"ın Bakı şəhərindı sakinlər arasında keçirdiyi sorğuda da demək olar ki, hər kəs Türkiyənin haqlı mövqedə olduğunu bildirərək, qardaş ölkənin tərəfini tutdu.

Eləcə də "Türkiyə Rusiyadan üzr istəməlidir" deyənlər sosial şəbəkələrdə kəskin tənqid atəşinə tutuldu. Belə ki, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidin facebook səhifəsində yazdığı "Türkiyə Rusiyaya üzrxahlıq eləməlidi! Yanlış olub deməlidi!" fikri onu bir çox ictimaiyyət nümayəndələri tərəfindən hücumlara məruz qoydu. Teleaparıcı Sevil Nuriyeva buna etiraz edərək R.Məcid haqqında aşağılayıcı fikirlər səsləndirdi. Bunun ardından deputat Aqil Abbas Rəşad Məcidi haqlı hesab edərək Türkiyənin üzr istəməli olduğunu bu fikirlərlə izah etdi: ""Mən bütün bunları dərindən izləyirəm, Türkiyə bu məsələdə ABŞ-ın "dutkasına" getdi. ABŞ istəyirdi ki, Türkiyə dağılsın və elə Rusiya da düşməni idi. Beş gün bundan əvvəl sayın Ərdoğanla Putin bir yerdə oturub dərdləşiblər, çörək yeyiblər, söhbətlər ediblər.

Axı təyyarə Türkiyənin ərazisin bombalamamışdı. Bu hadisəni çox pis qəbul edirəm, Türkiyəni bu məsələdə qınayıram. Onlar mütləq danışmalıydılar, məsələni aydınlaşdırmalıydılar. Gərək ki, Türkiyə bunu etməyəydi, təyyarəni vurmayaydı. Axı qırıcılar həmin təyyarəni Türkiyənin ərazisində endirə bilərdilər, həmçinin Türkiyənin ərazisindən kənarlaşdıra bilərdilər. İndi Rusiya da PKK-nı silahlandıracaq. Bundan sonra da Türkiyə səhvini yumaq üçün heç nə edə bilməyəcək, artıq çox gecdir. Bu məsələ Azərbaycana da böyük zərbədir".

Hazırda sosial şəbəkədə hər iki şəxsə qarşı tənqidlər hələ də səngimir. İstər ictimai fikir adamları, istərsə də sadə insanlar Rusiyanın xeyrinə kiçik bir ifadə işlədən hər kəsi tənqidlərə məruz qoyurlar.

Bütün bunlardan çıxış edərək keçmiş sovet respublikalarından biri kimi Azərbaycanda artıq Rusiyanın sosial dayaqlarının zəiflədiyini demək olar.

**Sosial şəbəkələrdə gedən müzakirələrdən gəldiyimiz bu qənaəti "Yeni Müsavat"a açıqlama verən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da təsdiqlədi:** "Bunun səbəbi odur ki, Türkiyə Azərbaycanın hərbi-strateji müttəfiqidir. Dili, dini bir olan millətik. Türkiyə bütün məsələlərdə bizim yanımızdadır, Qarabağ məsələsində Azərbaycanı dəstəkləyir. Ermənistanı işğalçı dövlət kimi tanıyır. Ona görə də obyektiv olaraq biz Türkiyənin tərəfindəyik. İkinci bir tərəfdən, Türkiyə haqlıdır. Dəfələrlə edilən xəbərdarlığa rəğmən Rusiya təyyarəsi Türkiyə sərhədini pozub və vurulub. Rusiya anlamalı idi ki, belə bir müharibəyə başlayırsa, itkiləri də olacaq. Bu məsələdə Türkiyə haqlı olduğundan biz Türkiyəni dəstəkləyirik.

Düzdür, cəmiyyətdə başqa fikirlər də oldu ki, Türkiyə Rusiyadan üzr istəməlidir. Ancaq bu fikirlər tənqidlə qarşılandı. Yəni cəmiyyətin də sifarişi budur ki, biz Türkiyənin yanında olmalıyıq".

**Millət vəkili Fazil Mustafa isə bir çoxlarının da ictimai rəydən qorxaraq Türkiyəni dəstəklədiyini bildirdi:** "Mən düşünmürəm ki, cəmiyyətimizdə hamı Türkiyənin tərəfindədir. Çünki İrana da satılmağa hazır olan, Rusiyaya da satılmağa hazır olan yetərincə elektorat var. Sadəcə, bu addım populyar olmadığına görə, qorxduqlarına görə, ictimai qınağa görə bu məsələdə Rusiyanın mövqeyini dəstəkləmədilər. Ancaq ilk kritik halda bunların çoxu Rusiyanı dəstəkləyəcəklər. O baxımdan da bu təhlükə Azərbaycanda həmişə var. Bəzi insanlar isə cəmiyyətin cəsarətli insanlarıdır ki, bu məsələdə Türkiyə ilə bağlı açıq fikir səsləndirə bildilər. Ancaq Azərbaycanda Rusiya fobiyası, İran fobiyası çox güclüdür. Vaxtında normal bu istiqamətdə tədbirlər görməməyin səbəb olduğunu demək olar. Rusiya nəsə baş verən kimi dərhal erməniləri çəkir qabağa, "böyük Ermənistan" məsələsinə qayıdır. Erməni ortaya çıxdısa, bu, təkcə Türkiyəyə qarşı təhdid deyil, həm də birbaşa Azərbaycana qarşı təhdiddir. Ona görə də bunun mahiyyətini doğru anlamalıyıq və ölkəmizin, dövlət müstəqilliyimizin qorunması üçün məsuliyyətli davranmalıyıq".

**Millət vəkilinin sözlərinə görə, hazırda Azərbaycanın regiondakı siyasi mövqeyi, müstəqilliyimizin möhkəmliyi müəyyən mənada həm də Türkiyənin mövqeyinin güclü olmasında asılıdır:** "Əlbəttə, Azərbaycanda Türkiyəni dəstəkləyən insanlar daha çoxdur. Əlbəttə, bunun səbəbi sadəcə dostluq, qardaşlıq, din, dil birliyi deyil. Hamı anlayır ki, Türkiyənin mövqeyinin zəifləməsi Azərbaycanın mövqeyinin də zəifləməsidir və istənilən vaxt İran, Rusiya tərəfindən Azərbaycana "sürprizlər", təhdidlər ola bilər. Ona görə də burada birmənalı olaraq müstəqilliyimizə saygılı olan hər kəs bu məsələdə Türkiyə ilə həmrəyliyini göstərir. Müstəqilliyimizə barmaqarası baxan, postsovet təfəkkürü ilə yaşayan insanların ürəyində Türkiyəyə o qədər də simpatiya yoxdur.

Üzr istəmək məsələsinə gəlincə, burada Türkiyə tam haqlı mövqedədir və heç bir halda üzr istəməməlidir. Əksinə, Rusiya üzr istəməlidir. Çünki burada sübutlar var, Rusiya təyyarəsi öz sərhədində vurulmayıb. Başqa bir ölkənin sərhədində Suriyanı təhdid edərkən vurulub. Buna görə də burada Türkiyənin üzr istəməsi üçün heç bir əsas yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

**Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanın kənd təsərrüfatı ilə bağlı 40 milyon dollar dəyərində layihə həyata keçirməyə başlayıb. Bildirilir ki, 2015-ci ilin sentyabrından etibarən Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Avropa İttifaqının dəstəyi ilə ölkədə yerli maliyyə institutlarını kənd təsərrüfatı sektoruna aid kreditlərin fermer və digər müəssisələrə verilməsini həvəsləndirmək məqsədi ilə "Azərbaycan Kənd Təsərrüfatı Maliyyə Alətləri" layihəsi (AZAFF) başlanıb.**

# Kənd təsərrüfatına 40 milyon dollar kredit ayrılır...

## Ekspertlər detalları açıqlayır; "Əslində bu cür beynəlxalq layihələrin həyata keçirilməsi çox önəmlidir, amma..."

Bildirilir ki, AZAFF özündə AYİB-in banklar vasitəsilə borcalanların maliyyələşməsi kimi ənənəvi yanaşması ilə yanaşı, Azərbaycanda kənd təsərrüfatının inkişafının maliyyələşdirilməsi və sürətləndirilməsi üçün qeyri-maliyyə dəstəyini birləşdirir. Yəni məqsəd yerli bankları da kənd təsərrüfatı sektorunda çalışan fermer və müəssisələrə kredit verməyə həvəsləndirməkdir.

Noyabrın 26-da Bakıda Avropa İttifaqı Azərbaycan nümayəndəliyi və AYİB "Azərbaycanda iqtisadi diversifikasiyanın sürətləndirilməsi: Kənd təsərrüfatı sahəsinə dəstək" mövzusunda tədbir keçirilib. AYİB-in Azərbaycandakı nümayəndəsi Nil Makkeyn tədbirdə bildirib ki, dünya bazarında neftin qiymətinin kəskin azalması ölkədə iqtisadiyyatın şaxələndirilməsinə olan ehtiyacı aktuallaşdırıb:

"Biz bilirik ki, Azərbaycan hakimiyyətinin yerli və beynəlxalq mənbələr hesabına fermerlərin fəallığının artırılmasına yönəlmiş sərmayələrin cəlb olunması üçün siyasi iradəsi var".

Hazırda AYİB Azərbaycanda kənd təsərrüfatının dəstəklənməsinə xidmət edən və ümumi dəyəri 40 milyon ABŞ dolları olan 11 layihəsinin icrasında iştirak edir. Layihə seçilmiş yerli banklar vasitəsilə regionlarda çalışan kiçik və orta fermer təsərrüfatlarına və sahibkarlıq müəssisələrinə kreditlərin verilməsini nəzərdə tutur. Maliyyələşdirmə yumşaq şərtlərlə (aşağı faiz və optimal müddət) aparılacaq.

Azərbaycan hökuməti kənd təsərrüfatının inkişafına dövlət dəstəyini Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti, "Aqrolizinq" ASC vasitəsilə göstərir. Kənd təsərrüfatında bitkiçilik məhsullarının istehsalı ilə məşğul olanlar torpağın sahəsinə görə subsidiyalar alır. Kənd təsərrüfatı texnikası, gübrələr və damazlıq qaramal dövlət büdcəsi hesabına bazar qiymətindən aşağı qiymətə satılır.

Hökumətin hesablamalarına görə, hər il bu məqsədlə təxminən 150 milyon manat sərf olunur. Bununla belə, bir çox fermerlər aşağı faiz dərəcəli kreditlərə çıxış imkanlarının olmamasından şikayət edirlər. Ölkə əhalisinin 38 faizi kənd təsərrüfatı sahəsində çalışır. Hökumət bu ilin əvvəlindən kənd təsərrüfatı məhsulu istehsalının 6,7 faiz artdığını iddia edir. Ümumi Daxili Məhsulda aqrar bölmənin payı isə 6,2 faizdir.



**Ekspert Natiq Cəfərli musavat.com-a açıqlamasında bildirib ki, əslində bu cür beynəlxalq layihələrin həyata keçirilməsi çox önəmlidir:** "Ölkədə müasir yanaşmaların, müasir yeni texnilogiyaların çox önəmli və vacib dəyəri var. Sadəcə, Azərbaycanda son illər buna bənzər onlarla layihə oldu ki, sonucda normal effekt vermədi. Müxtəlif sahələrdə həyata keçirilən bu tipli layihələr idarəetmənin effektivliyini artırmaq üçün nəzərdə tutulmuşdu. Amma çox təəssüf ki, Azərbaycanda bu cür layihələrin effektivliyi çox aşağıdır. Bu da idarəetmə problemləri ilə bağlıdır. Ümid etmək lazımdır ki, budəfəki layihə keyfiyyət dəyişikliyinə gətirib çıxaracaq. Çünki keyfiyyət dəyişikliyinə ehtiyac var. Əks halda, kənd təsərrüfatında köklü dəyişikliyə nail olmaq mümkünsüz olacaq. Subsidiyaların verilməsi də effektsiz oldu və korrupsiyaya yol açdı. Halbuki dünyada subsidiya son məhsulun həcminə və keyfiyyətinə görə verilir. Belə yeniliklərin ölkəyə gətirilməsi vacibdir. Əks halda, bu layihənin də nə fermerlərə, nə ölkəmizə, nə kənd təsərrüfatına bir köməyi olmayacaq".

**Qeyd edək ki, layihənin aparıcı bank mütəxəssisi İlqar Tağıyev marja.az-da bildirib ki, 40 milyon dollar vəsaitdən başqa məsləhət xidmətlərinin göstərilməsi üçün, yəni texniki dəstək üçün vəsait ayrılıb:** "40 milyon dollar vəsait əsasən banklar vasitəsilə fermerlərə ayrılacaqdır. Bundan başqa, 300 min dollardan yuxarı məbləğdə kredit istəyən müştərilərə kredit birbaşa AYİB tərəfindən veriləcək. Bizim layihənin funksiyası isə banklara və müştərilərə məsləhətlərin verilməsidir". İlqar Tağıyev qeyd edib ki, artıq partnyor bankların seçilməsi prosesi gedir. Layihə çərçivəsində 5-6 bankın seçilməsi nəzərdə tutulur. Kreditlərin 7 ilədək müddətə ayrılması nəzərdə tutulur. Kreditlərin xarici valyutada, yoxsa manatda verilməsi hazırda müzakirə mövzusudur. O qeyd edib ki, kənd təsərrüfatı kreditlərinin risklərinin minimallaşdırılması üzrə xüsusi sistem yaradılıb: "Bu ALLES proqramı adlanır. Bu proqramda kənd təsərrüfatının ayrı-ayrı sahələri barədə geniş məlumat var. Bu məlumatlar olduğundan, bankların kredit mütəxəssisinin hansısa məhsulun yetişdirilməsi barədə geniş məlumatının olmaması ehtiyac qalmır".

❑ **RÖYA**

# Hökumətin qış tədarükü...

## Taxıl, enerji ehtiyatları yetərincə görülübmü?

**Azərbaycanda rəsmi olaraq payız-qış mövsümünə keçilsə də, hələ də normativ sənədlərdə nəzərdə tutulan bəzi məsələlər həllini tapmayıb. Bunlardan ən ciddi problem mənzillərin, məktəblərin, uşaq bağçalarının hələ də istiliklə tam təmin olunmamasıdır. Elə bu məsələdən çıxış eləməklə hökumətin qışa hazır olmadığını demək olar. Qışa hazırlıqla bağlı strateji məsələlərdən biri də ərzaq buğdası tədarükünün görülməsidir.**

Azərbaycanın ərzaq buğdasını xarici ölkələrdən, əsasən Rusiya, Qazaxıstan və Ukraynadan gətirdiyini nəzərə alsaq, qışda hər hansı problem yaranarkən ölkənin çörəksiz qalması təhlükəsi şəksizdir. Bu baxımdan hökumətin taxıl ehtiyatının olması çox önəmlidir.

Bəs görəsən, hökumət baş verə biləcək neqativ ehtimalları nəzərə alaraq ölkəni taxıl ehtiyatı ilə təmin edibmi? Başqa hansı ərzaq məhsullarının tədarükü görülüb? Ərzaq təhlükəsizliyimiz hazırda hansı səviyyədədir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli** Azərbaycanın ərzaq məhsulları baxımından idxaldan asılı olduğunu və özünü bir çox məhsullarla, o cümlədən ərzaq buğdası ilə təmin edə bilmədiyini vurğuladı: "Əslində qış mövsümündə həmişə Azərbaycanda qiymətlərin artımı müşahidə olunur. Bu da mövsümlə bağlıdır və yeni məhsul çıxanda qiymətlər ucuzlaşmağa doğru gedir. İndi vəziyyət bir qədər də ağırlaşıb. Səbəb manatın dəyərdən düşməsi və dolların bahalaşması ilə bağlıdır. Bir müddət xaricdən gətirilən məhsulların qiymətini hökumət süni şəkildə tənzimləməyə çalışdı. Artıq bu sahədə tədricən artmalar müşahidə olunur və hər ay daha çox qiymət artımının şahidi oluruq. Bundan sonra da ölkəyə gətirilən yeni məhsullar nə qədər çox olacaqsa, bazarlarda da qiymət dəyişikliyi bir o qədər çox müşahidə olunacaq. Çünki cüzi də olsa, manatın dəyərdən düşməsi prosesi yenidən başlayıb və getdikcə bu sürətlənə bilər".

**Ekspert vurğuladı ki, Azərbaycanda hər zaman ən ciddi problemlərdən biri buğda ehtiyatlarının görülməsi olub:** "Çünki ölkədə istehsal olunan buğdanın keyfiyyəti çox aşağıdır. Bu səbəbdən çörək istehsalında yerli buğdadan yox, daha çox Qazaxıstandan, Rusiyadan, Ukraynadan gətirilən buğdadan istifadə olunur. Ona görə də hökumət bu məsələyə daha çox diqqət yetirməlidir".

**Ekspertin sözlərinə görə, qanunvericilikdə edilən dəyişikliklərə görə, taxıl ehtiyatının yaradılması Fövqəladə Hallar Nazirliyinə tapşırılıb:** "Hazırda təbii ki, hökumətin ehtiyatları var. Ancaq gələcəkdə də bu ehtiyatların normada saxlanılmasına, problem yaşanmaması üçün yeni alımların həyata keçirilməsinə ehti-



Natiq Cəfərli

yac yaranacaq və bu da xeyli miqdarda valyutanın ölkədən çıxmasına gətirib çıxaracaq. Bu baxımdan Azərbaycanın ərzaq təhlükəsizliyi məsələsində yaşanan problemlər var ki, bunlar öz həllini tapmayıb. Baxmayaraq ki, hökumət dəfələrlə bəyanat verib ki, Azərbaycan ərzaq təhlükəsizliyi ilə bağlı ciddi işlər görür. Ancaq bu deyilənlərin ciddi əsası yoxdur".

**N. Cəfərlinin sözlərinə görə, Azərbaycan bazarlarında yerli məhsullar dominant deyil və bazar idxaldan asılıdır:** "Hansı məhsul növlərində dominantlıq varsa, süd məhsullarında, çayda, şəkərdə - bu məhsulların da xammalı xaricdən gətirilir. Bu da ərzaq təhlükəsizliyi ilə bağlı ciddi problemdir. Hazırda hər hansı katastrafik vəziyyət ortada olmasa da dünyada gedən prosesləri nəzərə alaraq demək olar ki, Azərbaycan hər zaman öz işini ehtiyatlı tutmalıdır. Əsasən də çörək buğdasının normaya uyğun olaraq saxlanılmasına və hətta bir neçə aylıq artıq tədarükün görülməsinə ehtiyac var. Xaricdən gətirilən məhsulların Azərbaycanda saxlanılması və yerli məhsulların ehtiyatı üçün böyük soyuducuların olmasına ehtiyac var. Düzdür, bu istiqamətdə bəzi addımlar atılıb, bəzi bölgələrdə soyuducu kameralar istifadəyə verilib. Ancaq bu, Azərbaycan miqyasında götürdükdə yetərli deyil.

Qanunvericiliklə nəzərdə tutulan normativlər əsasən taxıla aiddir. Yəni ölkənin hər zaman 3 aylıq taxıl ehtiyatı olmalıdır.

Digər ərzaq növlərinə görə, belə normativlər təyin olunmayıb. Yeganə normativlər ordu ilə bağlıdır. Ordunun normal fəaliyyət göstərməsi üçün müəyyən ehtiyatlar olmalıdır. Azərbaycan da müharibə şəraitində olduğu üçün müəyyən normalara əməl etməlidir. Ancaq digər ərzaq növləri ilə bağlı belə tələbatlar yoxdur".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov isə qışa hazırlığın normativ sənədlərə əsasən həyata keçirildiyini vurğuldu:** "Qışa hazırlıqla əlaqədar həmişə Azərbaycan hökumətinin qərarı olub və bu qərara əsasən hazırlıqlar görülüb. Qışa hazırlıqla əlaqədar taxıl ehtiyatı, mazut ehtiyatı saxlanır ki, çörək və istiliklə bağlı problem olmasın. Ola bilər ki, ölkəyə taxılın gətirilməsində problem yaransın, nəqliyyatda problem yaransın. Ona görə də hökumətin qərarı ilə qışa hazırlıq bütün ölkə üzrə həyata keçirilir.

Normativ sənədlərə uyğun olaraq əsasən ərzaq buğdası ilə əlaqədar ehtiyat görülür və bu, FHN tərəfindən həyata keçirilir. Hazırda bununla bağlı heç bir problem yoxdur və mənə elə gəlir ki, qış boyunca da çörəklə bağlı problem olmayacaq. Yalnız istiliklə bağlı problem var. "Azəristilik"lə "Azəriqaz" arasındakı borc məsələsi ilə bağlı narazılığı da hökumət tam həll etməlidir ki, əhali əziyyət çəkməsin".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015

# Azərbaycanlılar niyə özlərini binanın damından yerə atırlar?

## Son bir ildəki ilginc intihar hekayələri və onların səbəbləri...

**Son illər Azərbaycanda, xüsusən də paytaxtda binanın başına çıxaraq intihar edənlərin sayı artıb. Yaşlı-gənc, qadın-kişi... demədən bir çoxları ən "optimal" intihar üsulu olaraq damın başına çıxmağı seçir. Bir də görürsən, saytlar xəbər yaydı: "Daha bir qadın (kişi) yaşadığı evin damına çıxdı". Bu hadisələrdən bəziləri xoşbəxt sonluqla bitir, yəni polis və ya intihar etmək istəyən şəxsin yaxınları hadisə yerinə gəlir, onu fikrindən daşındırır. Bəzənsə intihar etməyə hazırlaşan şəxs heç kimi dinləmir, çağırmır və qəflətən özünü havaya buraxır...**



### Eyni anda bir neçə nəfər binanın damından özünü atmaq istədi və...

"Yeni Müsavat" son dövrlər intiharın bu üsuluna baş vuranların hekayələrini yada salıb və bununla bağlı psixoloji təhlilləri nəzərə çatdırır. Azərbaycanlılar niyə intiharın "yüksəklik" növünə baş vurur?

2014-cü ildən başlanan bəzi hekayələrə nəzər salaq. 10 dekabr 2014-cü ildə Bakıda binanın damına çıxaraq intihara cəhd etmək istəyən şəxslər fikirlərindən daşındırılaraq aşağı düşürülüblər.

Azərbaycan prospekti, 1 a ünvanında yerləşən 12 mərtəbəli yaşayış binasının damına çıxan şəxslər aşağı düşürülən şəxslər tikinti şirkətlərindən birində fəhlə kimi çalışdıqlarını, gecikdirilən əmək haqlarını tələb etdiklərini deyiblər. Lakin onlar çalışdıqları tikinti şirkətinin adını bilmədiklərini söyləyiblər.

1987-ci il təvəllüdlü Məmmədov Ceyhun Fehruz oğlu, onun qardaşı, 1988-ci il təvəllüdlü Sərxan Məmmədov, 1988-ci il təvəllüdlü Bağırov Şamxal Məhərrəm oğlu, onun 1985-ci il təvəllüdlü qardaşı Vüqar Bağırov, 1986-cı il təvəllüdlü Əliyev Aqil İbrahim oğlu və 1995-ci il təvəllüdlü Salahov Həsrət Mustafa oğlu Yasamal Rayon Polis İdarəsinin 26-cı polis bölməsinə aparılıblar.

### Sevgilinin biri damda, biri yerdə... sonda barışıblar

2014-cü ilin martında "28 May" metro stansiyasının yaxınlığındakı çoxmərtəbəli binaya çıxan qadın özünü oradan atmaq istəyib. Hadisə yerinə gələn Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları intihar cəhdinin qarşısını almaq üçün ərazidə təhlükəsizlik yastığı quraşdırıblar. Nazirliyin əməkdaşları eyni zamanda alpinist ləvazimatlarının və müvafiq xilasetmə avadanlıqlarının hazırlanması, vətəndaşların təhlükəsiz məsafəyə uzaqlaşdırılmasının təmin ediblər.

Daha sonra xilasedicilər intihar etmək istəyən şəxslə müvafiq psixoloji söhbətlər aparıblar. Aparılmış danışıqlar nəticəsində xilasedicilər tərəfindən intihara cəhdin qarşısı alınıb.

**Sahə müvəkkili Nizami Hüseynov bunları deyib:** "Hadisə barədə xəbər aldıqdan sonra dərhal olay yerinə gəldik. İntihar etmək istəyən qızla psixoloji söhbət aparıldı. Bizə heç bir reaksiya vermədi. Öyrəndik ki, sevgilisi ilə arasında yaranan problemə görə bu yola əl atıb. Sevgilisini də çağırdıq. Daha sonra aparılan danışıqlar müsbət nəticə verdi və qadını intihar etmək fikrindən daşındırdıq".

### Binasını sökmək istəyiblər, özü binanın damına çıxıb

2015-ci ilin oktyabrında isə Hüseyn Cavid prospektində yerləşən tikintisi davam etdirilən binada intihar etmək istəyən şəxsin kimliyi bəlli olub. O, Şəmkir rayon sakini, 1992-ci il təvəllüdlü Tamerlan Ələsgərlidir. T.Ələsgərli bir müddət öncə Səbayel rayonunda, sonra isə Nərimanov rayonunda intihara cəhd edib. T.Ələsgərli bildirib ki, 100 yaşlı nənəsi onu məhkəməyə verib. Tamerlan babasından ona miras qalan evdə yaşayıb və evin onun olduğunu bildirib. Nənəsi isə onun həmin ev üzərində qeydiyyatının ləğv edilməsi üçün məhkəməyə müraciət edib. Şəmkir Rayon Məhkəməsinin qərarı ilə Tamerlan Ələsgərli həmin evdə qeydiyyatdan çıxarılıb. Bu qərarla 23 yaşlı gənc həm evi, həm də torpaq sahəsini itirib.

Bir müddət əvvəl Bakıya gələn Tamerlan rəsmi qurumlara müraciət etmək qərarına gəlib. Prezident Administrasiyasına gedib şikayət etmək istəyən gənc sonra intihara cəhdlə özünə və probleminə diqqət çəkmək istəyib. Oktyabrın 2-də Ceyhun Hacıbəyli küçəsində yerləşən yaşayış binasının damına çıxaraq özünü atacağını bildirib. Həmin vaxt FHN və Nərimanov RPI 16-cı polis bölməsi əməkdaşları tərəfindən qarşısı alınıb.

Bu il noyabrın 5-də isə Bakıda sahibkar intihara cəhd edib. Binəqədi rayonunda 6-cı mikrorayon ərazisində tikilməkdə olan idman kompleksinə çıxan kişi özünü oradan atmaq istəyib.

Hadisə şahidlərinin sözlərinə görə, buna səbəb kompleksin binasının böyük hissəsinin hazır olmasına baxmayaraq icra hakimiyyəti tərəfindən onun sökülmək istənilməsi olub.

Tikilən binanın 4-cü mərtəbəsinə qalxan şəxs Binəqədi Rayon İcra Hakimiyyətinin ünvanına rüşvət ittihamları səsləndirib. "500 minimi qaytarın, sonra sökün".

Sahibkarın intihara cəhdindən sonra texnika və icra nümayəndələri hadisə yerindən uzaqlaşıblar.

2015-ci ilin avqustunda isə Nizami rayonu ərazisində yerləşən yaşayış binasının 5-ci mərtəbəsində bir qadın intihara cəhd edib. Qadının intihara cəhd etməsinə səbəbin ailə münaqişəsi olduğu bildirilir. Qadın təxminən 30 dəqiqədən artıq bir müddətdə eyvandan asılı vəziyyətdə qalıb. Qadın özünü aşağı atmaq istəsə də, onu qonşuların sayəsində xilas etmək mümkün olub.

Bu müddət ərzində ətrafda yaşayan insanlar onun başını qataraq, intihardan vaz keçirməyə cəhd ediblər.

### Evi yandırıb, sonra özünü yerə atıb

8-ci kilometr bazarının ərazisində yerləşən 9 mərtəbəli binaların birindəki yanğın bir nəfərin ölməsinə səbəb olub. 1983-cü il təvəllüdlü Adıgözəlova Könül Əli qızı yanğın zamanı həyəcanlanıb və nəticədə özünü yaşadığı binanın 9-cu mərtəbəsindən atıb. Mərhumun ailəsinin verdiyi məlumata görə, evdə baş vermiş yanğına K.Adıgözəlovanın özü səbəb olub. O, qayınanası yatan zaman evdə olan cehizlərini yandırıb və daha sonra özünü 9-cu mərtəbədən atıb.

**İntihar edən K.Adıgözəlovanın atası bildirib ki, artıq iki ilə yaxındır ki, qızının ailəsində problemlər yaşanırdı:** "Qızımı onlar öldürdü. İki ildir ki, qızıma əziyyət verirdilər, günahkar onlardır " - deyə mərhumun atası bildirib.

Ən son intihar isə iki gün öncə, yəni noyabrın 26-da paytaxtın Nizami rayonunda qeydə alınıb. Rayon sakini, 1993-cü il təvəllüdlü Türkan Eldar qızı Həsənzadə yaşadığı binanın damından özünü atıb. Nəticədə o aldığı xəsarətdən hadisə yerindəcə ölüb. Məlumata görə, T. Həsənzadə Tibb Universitetinin tələbəsi olub. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

Digər intihar hadisəsi isə Səbayel rayonunda baş verib. Rayonun A. Abbaszadə küçəsində yerləşən yaşayış binasının 6-cı mərtəbəsindəki mənzildə təmir işləri aparan usta, 1987-ci il təvəllüdlü İlqar Bəşir oğlu Aşurbəyov özünü eyvandan atıb. O, aldığı xəsarətdən hadisə yerindəcə dünyasını dəyişib.

Hər iki faktla bağlı cinayət işi başlanıb, istintaq hərəkətləri davam etdirilir.

### Kişilər intihar edəndə daha ölümcül və aktiv üsulları seçir

Göründüyü kimi, hadisələrdən bəzilərinin səbəbləri və nəticələri araşdırılıb, bəziləri isə hələlik məlum deyil. Amma sosioloji araşdırmalar sübut edir ki, həqiqi intiharlarda olduğu kimi, intihar cəhdlərində də kişilər qadınlarla müqayisədə daha ölümcül və aktiv üsulları seçirlər. Los-Angelesdə aparılan bir araşdırmaya görə, başına atəş açan qadınların 14 faizi, kişilərin isə 35 faizi öz məqsədlərinə nail olurlar. Eyni araşdırmada o da üzə çıxıb ki, hündür yerdən hoppanaraq intihar edən 24 kişidən 16-sı, 27 qadından 9-u ölüb. Bu nəticələr intihar etmənin sanki kişilər tərəfindən daha çox ciddiyə alındığını və bu səbəbdən də məqsədə çatdığını sübut edir.

### Bəzən blef, bəzən yüz faiz ölüm təminatı...

Araşdırmalar onu da göstərir ki, intiharın bu növü həm də ölümə "çatma" müddətinə görə ən sürətli olandır. Belə ki, ən azı 30 metr yüksəklikdən sərt bir zəminə atlayan adamın ölüm müddəti cəmi 5 saniyədir. Ölüm səbəbi isə daxili orqanların partlaması, kəllə-beyin travması alması və qırılan qabırğalarının ürəyi parçalaması ola bilər. Qurtulma şansı - 5 faiz, hiss ediləcək ağrı - 7 faiz.

Psixoloqlar isə sübut edir ki, çox zaman publikaya hesablanmış intihar üsulları insanların öz dərdini ictimailəşdirməsi məqsədi daşıyır. Bir çox hallarda bu şəxslər dünyadan köçmək yox, problemlərinin həllini arzulayırlar. Məqsəd: səs-küy düşsün, media, əlaqədar qurumlar və ya şəxslər bu olaydan xəbər tutsun, məqsədin ciddiliyinin fərqinə varsın... Beləcə, problem bu və ya digər hallarda həllini tapsın. Araşdırmalar göstərir ki, bunu blef məqsədilə edənlərlə yanaşı, gerçəkdən həyatla vidalaşmaq istəyənlər də var. Sonuncular bu üsula baş vuracaqları halda qurtulma şansları olmadığının fərqindədirlər.

❑ **Sevinc TELMANQIZI**



# Qarabağ qazisi, nəhayət, əməliyyat olundu

**Qızı:** "Anam üçün əziyyət çəkən hər kəsə dərin təşəkkürümü bildirirəm..."

**"Tutu" ləqəbli Qarabağ qazisi Rüxsarə Cumayeva ötən gün Türkiyədə əməliyyat olunub. Bu barədə "Yeni Müsavat"a xanım qazinin qızı Rəqsanə Qurbanova məlumat verdi: "Anam dünən səhər əməliyyat olundu. 6 saat çəkən əməliyyat uğurla başa çatdı. Artıq o ayılıb. Anam üçün əziyyət çəkən hər kəsə ayrı-ayrılıqda dərin təşəkkürümü bildirirəm. Dualarımız qəbul olundu".**

Xanım qazinin qızı əməliyyat ödənişlərini boynuna götürən xeyirxah şəxsə öz təşəkkürünü bildirdi: "Əməliyyatın bütün xərclərini təmənnasız öz üzərinə götürən, böyük ürəkli həmin şəxsin qarşısında baş əyirəm. Həmçinin əməliyyatı uğurla həyata keçirən həkim Can Salakoğluna, Türkiyədə yanımızda olan hər bir kəsə təşəkkür edir, "Var olun!" deyirəm".

Xatırladaq ki, hər iki ayağından dəfələrlə əməliyyat olunan Qarabağ qazisi Rüxsarə Cumayeva bir neçə ay bundan öncə müvazinətini itirərək yıxılmış, nəticədə sol ayağı protezindən ayrılaraq orqanizmində ciddi fəsadlar yaratmışdı. Müayinələrdən sonra məlum olmuşdu qazi xanım yenidən təcili əməliyyat edilməlidir. Əməliyyat üçün isə 20 min manat tələb olunurdu.

Onu da əlavə edək ki, xanım qazinin əməliyyatına yardım edilməsi ilə bağlı "Yeni Müsavat" qəzetində bir neçə yazı dərc olunub.

❑ **Xalidə GƏRAY**



## Hacıqabulda ər arvadını və özünü öldürdü

Hacıqabul rayonunda qətl hadisəsi baş verib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, hadisə dünən səhər saatlarında Hacıqabul şəhəri Əlağa Vahid küçəsi -155 ünvanında qeydə alınıb. Rayon sakini 1953-cü il təvəllüdlü Hüseynov Əflan Gəncəli oğlu həyat yoldaşı, 1954-cü il təvəllüdlü Hüseynova Almaz Sabir qızını ürək nahiyəsinə bıçaqla vuraraq qətlə yetirib. Bundan sonra Ə. Hüseynov özünü ov tüfəngi ilə vuraraq öldürüb. Faktla bağlı Hacıqabul Rayon Prokurorluğunda araşdırma aparılır.

## Goranboyda dəhşətli qəza; 4 ölü



Goranboy rayonunda dəhşətli yol qəzası baş verib. APA-nın məlumatına görə, hadisə rayonun Borsunlu kəndindən Goranboy şəhərinə gedən yolda qeydə alınıb. İki "VAZ-2107" markalı avtomobilin toqquşması nəticəsində 4 nəfər ölüb, 4 nəfər isə müxtəlif bədən xəsarətləri alaraq Goranboy Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Ölənlər rayonun Veyisli kənd orta məktəbinin direktoru Ələsgər Ələsgərov, direktor müavini Nofəl İsmayılov, rayon sakinləri Səday İsmayılov və Yaşar Rzayevdir.

Xəsarət alanların isə rayonun Qaraçinar kənd sakini, 1981-ci il təvəllüdlü Xəqani Rzayev, Qızıl Hacılı kənd sakini, 1982-ci il təvəllüdlü Elman Həsənov, Yenikənd kənd sakini, 1990-cı il təvəllüdlü Nəriman Rzayev və Veyisli kənd sakini, 1977-ci il təvəllüdlü Bəxtiyar Əhmədov olduğu bildirilib.

Faktla bağlı Goranboy Rayon Polis Şöbəsində araşdırma aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** **(*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Sumqayıt sakinini qoç vurub öldürdü

Sumqayıtda bədbəxt hadisə baş verib. Sumqayıt Şəhər Polis İdarəsindən APA-ya verilən məlumata görə, noyabrın 25-də Sumqayıt şəhərinin Z.Tağıyev qəsəbəsində yaşayan Rafiq Əliyevi həyətində qoç vurub. Nəticədə xəstəxanaya yerləşdirilmiş R.Əliyev orada ölüb.

## Dələduzluqda təqsirləndirilən qadın məhkəmə zalında həbs olundu

Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Gülnarə Əzimovanın cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə Gülnarə Əzimova 7 il 5 ay 28 gün müddətinə azadlıqdan məhrum edilib. O, məhkəmə zalında həbs olunub.

Qeyd edək ki, Gülnarə Əzimova şəhər sakinlərinin etimadını qazanaraq dələduzluq edib. G. Əzimova Cinayət Məcəlləsinin 178.3.2 ( külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə ittiham olunur. İbtidai istintaq və məhkəmə dövründə onun barəsində həbs-qətimkan tədbiri seçilməyib.

## 25 yaşlı Qusar sakini itkin düşüb

Qusar rayon sakini itkin düşüb. APA-nın şimal bürosunun verdiyi məlumata görə, Qusar rayonunun Həsənqala kənd sakini Qaracov Əlayəddin Məcid oğlu Qusar Rayon Polis Şöbəsinə müraciət edərək oğlu, 1990-cı il təvəllüdlü Əfqan Məcidovun işləmək adı ilə 12 iyun 2015-ci il tarixində şəxsiyyət vəsiqəsini götürərək Bakı şəhərinə getdiyini, onunla 27 sentyabrdan sonra əlaqə yarada bilmədiklərini deyib.

Aparılan ilkin əməliyyat-axtarış tədbirlərinə baxmayaraq, itkin düşən Ə.Məcidovun yerini müəyyənləşdirmək mümkün olmayıb. Onun Bakı, Sumqayıt şəhərlərinə və ətraf rayonlara getməsi ehtimal olunur.

Onun əlamətləri: boyu 166 sm, yumru, qarayanız sifət, qara-qısa saçlar, gözləri, qaşları və kirpikləri qara, orta köklüklə bədən quruluşlu, enli kürəkli, uzun-düz burunlu. Evdən çıxarkən əynində ağ rəngli qısaqol köynək, cins şalvar, deşikli qara rəngli yay ayaqqabıları olub.

Onun barəsində məlumatı olan şəxslərdən Qusar Rayon Polis Şöbəsinə (023) 385-28-03, 385-28-35, 385-43-19, (050) 321 -87 -20 və "102" nömrəli telefonlara zəng vurmaq xahiş olunur.

## Gədəbəydə avtomobil aşıb, 41 yaşlı sürücü ölüb

Gədəbəydə sürücünün ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Şəmkir-Gədəbəy avtomobil yolunda Qaramurad kənd sakini, 1974-cü il təvəllüdlü Əlövsət Abdullayevin idarə etdiyi "VAZ 2107" markalı avtomobil aşıb.

Nəticədə Ə. Abdullayev qapalı kəllə-beyin travması və döş qəfəsinin küt travması xəsarətləri ilə Gəncə Şəhər Təcili Tibbi Yardım xəstəxanasına yerləşdirilib. Ona tibbi yardım göstərilsə də, həyatını xilas etmək mümkün olmayıb.

Faktla bağlı Gədəbəy Rayon Polis Şöbəsində araşdırma aparılır.


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## Dostu ilə birləşib əmisi oğlunun evini yardı

**Dostu ilə əlbir oldu, evində yaşadığı əmisi oğlundan 14 minlik oğurluq etdi. Saxlanılan şəxslərin başqa cinayət planları da üzə çıxdı. Masazır qəsəbə sakini Bağır İbrahimov polis idarəsinə ərizə ilə müraciət edərək ona məxsus mənzilin həyətyanı sahəsindən içi qızıl- zinət əşyaları ilə dolu seyf oğurlandığını bildirib.**

Abşeron Rayon Polis İdarəsinin cinayət- axtarış şöbəsi əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində zərərçəkənin əmisi oğlu Elşən İbrahimov və onun tanışı Həsənalı Əliyev saxlanılıb.

İlkin dindirilmə zamanı hər iki şəxs törətdikləri əməli etiraf ediblər. Naxçıvan Muxtar Respublikasının Culfa rayonundan olan Elşən İbrahimov Bakıya işləməyə gəlib və bu müddət ərzində o, əmisi oğlugildə yaşayıb. Belə olduğu təqdirdə isə onun mənzilində seyfin varlığından xəbəri olub.

Söhbət zamanı Həsənalı bütün planın Elşənə məxsus olduğunu deyir. Tanışlar seyfi oğurlayaraq taksi ilə Xırdalan şəhərində yerləşən, Elşənin işlədiyi kafelərdən birinə aparıblar. Daha sonra isə seyfi yararaq qızılları əldə ediblər.

**Həsənalı Əliyev - saxlanılan şəxs:** "İşdən tanıyırdım onu. Deyirdi ki, əmimoğlugildə seyf var, içində də pul, qızıl. Əlcək geyinib, hasarı aşdı, bütün qapıları açdı, mən də kömək eləbeing".

Aparılan əməliyyat tədbirləri zamanı məlum olub ki, tanışlar bundan başqa daha bir cinayət törətməyə çalışıblar.

**Elşən İbrahimov - saxlanılan şəxs:** "Mənə deyirdi ki, bir makler var, imkanlıdır, yaxşı pulu var, 50 min rahat ala bilərik ondan. O adamı qaçırtmaq istəyirdik".

Artıq hər iki şəxsin törətdiyi dırnaqarası qəhrəmanlığa rayon polis idarəsində hüquqi qiymət verilib.

Qeyd edək ki, məlum oğurluq zamanı saxlanılan şəxslər qızılların bir qismini sata bilsələr də, qalan hissəsi polis əməkdaşları tərəfindən maddi sübut kimi götürülüb. (Region TV)


## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

* Arı südü
* Mumiya
* Möhtəşəm ağ bal
* İssık-Kul balı
* Esparset balı
* Çayek balı
* Şan balı
* Karkıra balı və s.

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119

**Tel:** (012) 491-23-82; (051) 922-15-71

## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 265 (6293) 28 noyabr 2015





# Düyünün 5 növünün eksperimenti keçirildi, nəticəsi isə...

## Eyyub Hüseynov: "Azərbaycan bazarında süni düyülər var"

**Hər hansı bir məclisə və ya qonaqlığa gedərkən süfrəyə gətirilən plovu görən kimi, hər kəsin ortaq mövzusu düyülərin süni olub- olmaması ilə bağlı olur. Mətbuatda satışda süni və Genetik Modifikasiya Olunmuş (GMO) düyülərin satışı ilə bağlı yazılar dərc edilib. Ancaq bu problem müsbət müstəvidə həllini tapmayıb.**

Hazırda Azərbaycan bazarında yerli düyülərlə yanaşı Hindistan, Pakistan, İran, İraq və Əfqanıstan kimi ölkələrin istehsalı olan düyülər də satılır. Qiymətləri isə müxtəlifdir.

**"Yaşıl bazar"da Lənkəran düyüsü satan Samirə Abbasova:** "Ən yaxşı düyü Lənkəran düyüsüdür. Bu düyünün dadı digərlərindən tamamilə fərqlənir. Bu düyünün bir kilosu 6 manatdır. Baha olduğu üçün gedib 2-3 manatlıq xaric istehsalı olan düyünü alırlar. Amma dadını bilsələr alarlar".

Mağazalarda da yerli düyülərə rast gəlsək də, onların sayı xaricdə istehsal edilən düyülərin sayından az idi. Ümumiyyətlə, düyülər bir-birilərindən xarici əlamətlərinə, toxumalarının quruluşuna, nişasta dənələrinin formasına və ölçüsünə, tərkibində olan karbohidratların, yağların, mineral maddələrin miqdarına görə fərqlənirlər. Hazırda düyünün ağ, qəhvəyi, qızılı, qara rəngdə olan uzun, orta, yumru dənəli minlərlə növü mövcuddur. Ağ düyü daha geniş yayılmış növdür və istənilən yeməyin hazırlanmasında istifadəyə uyğundur. Qəhvəyi, qızılı, qara düyülərə isə ticarət şəbəkələrində az-az rast gəlinir və onlar bütün yeməklərin hazırlanmasında istifadə olunmurlar. Qızılı düyülərin GMO məhsulu olduğu da bildirilir ki, bu da insan səhhətinə zərərlidir və uzun illərdir GMO tərkibli məhsulların Azərbaycan bazarından yığışdırılması üçün mübarizə aparılır.

Düyünün keyfiyyətini sadə yollarla müəyyən etmək mümkündür. Alıcılar bilməlidir ki, keyfiyyətli düyü iri, ağ, bir formada və tək-tək olmalıdır. Rənginin dəyişməsi məhsulun keyfiyyətinin pisləşməsinə və korlanmasına dəlalət edir. Parıltılı ağ dənəciklərin olması onların tam yetişməməsinə və bişirildikdə pis həll olunmasına işarədir. Düyü bağlamalarında qabıq olmamalıdır, əks halda, bu toz əmələ gətirir ki, bu da onun keyfiyyətini aşağı salır. Xırdalanmış və ya əzilmiş düyü istehsal tullantısı hesab olunur. Bir sözlə, düyünün keyfiyyətini yoxlayarkən onların rənginə, səthinin vəziyyətinə tərkibində qarışıqların olmamasına, ziyanvericilərin təsirinə məruz qalmamasına, formasına və konsistensiyasına diqqət etmək lazımdır. Düyünün iyi məhsulun növünə müvafiq olmalı, kənar iy verməməlidir. Düyüdən kif və rütubətli iyin gəlməsi saxlama şəraitinin pozulması ilə bağlıdır və məhsulun korlandığını, qida dəyərinin azaldığını göstərir. Bu məhsulları alarkən onların saxlama müddəti və şəraitinə diqqət yetirin. Düyünü ən çox Cənub-Şərqi Asiya və Uzaq Şərq ölkələrində istehsal edirlər. Ən yaxşı düyülərin Misir düyüləri olduğu bildirilir. Bir çox ölkələrdə süni düyü satışı qanuni yolla həyata keçirilir. Bu cür düyülərin qablaşdırılması onların süni olduğu və tərkibində müxtəlif qatqıların olduğu göstərilir.



**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Azərbaycan bazarında da süni düyülərin olduğunu, lakin bunun xarici ölkələrdə qanuni yolla istehsal edildiyini və insan səhhəti üçün zərərli olmadığını bildirdi:** "Azərbaycan bazarında süni düyülər var. Süni düyülər qarışıqlardan hazırlanır və düyüyə tam oxşadılır. İnsan üçün bunun zərəri yoxdur. Süni düyü də yeyilməsi mümkün olan bir məhsuldur. Bu cür düyülər xarici ölkələrdə qanuni olaraq istehsal olunur və Azərbaycana gətirilir. Hətta onu istehsal edən aparatlar, cihazlar da satışda var. Azərbaycanda da ola bilsin ki, bu istehsal olunsun. Lakin birmənalı şəkildə sarı düyülər deyilən düyülər var ki, onlar genetik modifikasiya olunmuş düyülərdir. Xüsusən də Hindistan və Pakistandakı plantasiyalarda yetişdirilir. Azad İstehlakçılar Birliyi həmin düyülərin satışının əleyhinədir. Əhali yerli mallara üstünlük verməlidir. Çünki yerli məhsullar ekoloji cəhətdən nisbətən təmizdir. Lakin istehlakçının seçim hüququ var. İstəyər Şri-Lankadan gələn düyünü alar, istəsə də Hindistandan gələn düyünü. Bu artıq istehlakçının seçimidir. Lakin onu qeyd edim ki, süni düyü satışda varsa, onun etiketində mütləq bu yazılmalıdır".

**Qurum sədri beş növ düyünün eksperimentini keçirdiyini, lakin hələ ki müsbət bir nəticə əldə edə bilmədiklərini dedi:** "Biz ofisimizdə 5 növ düyünün eksperimentini keçirdik. Bu düyüləri ayrı-ayrılıqda suya qoymuşuq ki, cücərsin. Ancaq hələ ki, cücərmə baş verməyib, sadəcə olaraq, kiflənib. Yəqin ki, bu yaxınlarda mütəxəssislərlə müzakirə aparacağıq ki, nəyə görə bu düyülərin bəzilərinin üzərində kif göbələkləri əmələ gəlib, bəzilərində isə gəlməyib. Digər düyülərdən fərqli olaraq yalnız yerli düyünün üzərində hələlik heç nə əmələ gəlməyib. Mütəxəssislərlə məsləhətləşib bu haqda danışacağıq. Təəssüflər olsun ki, yerli düyü istehsalımız da çox zəifdir. Yerli düyülər bazarın heç 5-6 faizini tutmur".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# Nazirlik rəsmisi aclıq edən sahibkarın ittihamlarından danışdı

## Heydər Əsədovun qohumlarının nümayəndəsi Dönməz Məmmədovu ittiham etdi

**"Amal D" şirkətinin sahibi Dönməz Məmmədovun növbəti dəfə Gürcüstan ərazisinə keçərək orada aclıq aksiyası keçirməsi haqda məlumat vermişdik. Sahibkar Nəqliyyat Nazirliyi Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) 8 saylı Regional MMC-nin şöbə rəisi Anar Səfərlinin qanunsuz tələblərinə son qoymasını, ondan alınan 509 saylı marşrutun özünə qaytarılmasını tələb edir.**



DANX 8 saylı Regional MMC-nin nümayəndəsi Ədalət Ağayev və sahibkar Hacı Mikayıl oğlu Həmzəyev redaksiyamıza gələrək D.Məmmədovun fikirlərinə münasibətlərini bildiriblər.

**Ə.Ağayev deyib:** "Dönməz Məmmədov bizdə daşıyıcıdır. Onun iki marşrutu var - 501 və 509. Hazırda hər iki marşrutu işləyir. Onun niyə aclıq etdiyini bilmirik".

**Nümayəndə iddia edir ki, Dönməz Məmmədov rəqabətdən narazıdır:** "Onun şikayətləri 505 saylı marşrutla bağlıdır. Onun marşrutu əlindən alınmayıb, marşrutu işləyir. Haradasa marşrutlar bir-birini təkrarlayır. Narazılıq bununla bağlıdır".

"Dönməz Məmmədov qəzetimizə açıqlamasında deyib ki, DANX rəisi Anar Səfərli onu yanına çağıraraq hər ay ona ödədiyi 13 min manat "şapka"dan əlavə 3 min manat da MTN-in Sumqayıt şöbəsinə verməsini tapşırıb. DANX nümayəndəsi olaraq bununla bağlı nə deyə bilərsiz" sualına nümayəndə "Təbii ki, Anar Səfərli ondan pul almayıb. Belə söhbət olmayıb" deyə cavab verib.

**Nümayəndə digər suala cavab olaraq bildirib ki, A.Səfərli ilə D.Məmmədovun söhbəti zamanı orada iştirak etməyib:** "Mən belə bir söhbətdə iştirak etməmişəm. Dövlətin vergisi, müəyyən bank ödənişləri var, onları ödəyib işləyirlər. İndi rəqabət şəraitidir, kim işləyə bilirsə işləyir".

**Nümayəndə deyir ki, marşrutun D.Məmmədovdan alınaraq kənd təsərrüfatı naziri Heydər Əsədovun yaxın qohumları olan Əliağa və Kamal Saday oğlu qardaşlarına verilməsi düzgün deyil:** "Həmin marşrutun nümayəndəsi bu yoldaşdır".

Özünü digər marşrutun nümayəndəsi kimi təqdim edən Hacı Mikayıl oğlu Həmzəyev isə deyir ki, Qarabağda döyüşüb. O, "siz Əliağa və Kamal Saday oğlu qardaşlarının nümayəndəsi olaraq danışırsız" sualına "haradasa hə" cavabını verib.

**Deyib ki, D.Məmmədovun söylədikləri həqiqət deyil:** "Dönməz Məmmədov Sumqayıtdan Bakıya sərnişin daşıyır. O da mənim kimi sahibkardır. Sumqayıtdan Bakıya yararsız avtobuslarla sərnişin daşıyır. Marşrutlarındakı avtobuslar 2003-cü il istehsallıdır, kondisioneri, isitmə sistemi yoxdur. Burada hallandırırlar ki, kimsə kiminsə qohumudur. Həmin şirkətin nümayəndəsi mənəm. Avropa Oyunları ərəfəsində onun marşrutundakı avtobuslar köhnə olduğuna görə, istismara yaramadığına görə respublikaya gələn xarici qonaqlar, öz ana-bacılarımız, qardaşlarımız həmin avtobuslardan istifadə etməsin deyə onun maşınlarını dayandırıb mənim maşınlarımı həmin marşruta saldılar. Camaat da hədsiz dərəcədə razıdır. Bu onun marşrutu deyil, marşrutunun əlavəsidir. Yəni avtobuslar paralel işləyib və bu gün də işləyir".

H.Həmzəyev iddia edib ki, onun nümayəndəsi olduğu marşrut D.Məmmədovun marşrutunu təkrarlamır.

DANX nümayəndəsinin redaksiyamıza təqdim etdiyi sənədlərdən görünür ki, D.Məmmədovun istismar etdiyi marşrut üzrə hərəkət edən avtobusların əksəriyyəti 2013-cü il istehsallıdır. Belə bir halda onun sərnişindaşımada köhnə avtobuslardan istifadə etməkdə günahlandırılması başa düşülmür.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Azəristilik"lə "Azəriqaz" barışdı

**"Azəristiliktəchizat" ASC ilə "Azəriqaz" İB arasında borc görə aparılan danışıqlarda razılıq əldə olunub və artıq bütün qazanxanaların qaz təminatı bərpa edilib. Bu haqda "Azəristiliktəchizat" ASC-nin abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev "Yeni Müsavat"a açıqlamasında məlumat verib. O bildirib ki, artıq 27 noyabr saat 15:30 radələrindən başlayaraq paytaxtda və respublikanın bütün bölgələrində qazanxanalara qaz verilib: "Məhəllədaxili kiçik qazanxanaların işi bərpa edilib. İri qazanxanalara isə 28 noyabr günorta saatlarına qədər tam şəkildə istilik veriləcək".**

Borc probleminə gəlincə, Rafiq Əliyev bu məsələdə "Azəriqaz" rəhbərliyinin güzəştə getdiyini qeyd etdi: "Sağ olsun "Azəriqaz" rəhbərliyini, güzəşt elədilər bizə və imkan verdilər ki, qazanxanalarımızı işə salaq. Borc məsələsinə hökumətdə də baxılır. Yəqin ki iki qurum arasında bu, rəhbərlik səviyyəsində həll olunacaq. Qərara alındı ki, qazanxanalar qazla təmin olunsun, öz aramızdakı bu məsələyə isə sonra aydınlıq gətirərik".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 265 (6293) 28 noyabr 2015

# YouTube-da izləyib təyyarə düzəltdi

Efiopiyada yaşayan Asmelaaş Zeferu 15 il əvvəl pilot olmaq istəyib. 35 yaşlı kişi bundan ötrü imtahan versə də boyu standartdan 1 santimetr qısa olduğu üçün qəbul edilməyib. Sonra o, öz xəyallarını gerçəkləşdirmək üçün YouTube sosial şəbəkəsində izlədiyi videolarla öz təyyarəsini hazırlayıb. 1920-30-cu illərdə Amerikada stajda olan pilotların istifadə etdiyi təyyarəni hazırlamağı qarşısına məqsəd qoyan Zeferu CNN-ə verdiyi müsahibədə "indi göy üzündə uça biləcəyəm" deyib.





## İştahanı korlayan bitkilər

Təbii yollarla arıqlamaq, formada qalmaq istəyənlər üçün iştahakəsici bitkilər də var. Onlardan bəzilərinin təsirlərinə nəzər salaq.

**Cəfəri** maddələr mübadiləsini sürətləndirir. Cəfəri yemək və çayını içmək şişlərə və bədənin su toplamasına qarşı çox təsirli üsul olaraq bilinir.

**Adaçayı** arıqlamaq istəyənlər tərəfindən iştahakəsici olaraq istifadə olunur. Çay və yeməklərdə ədviyyat olaraq da istifadə edilə bilər.

**Kəklikotu** həzm problemlərini müalicəedici təsirə sahibdir və maddələr mübadiləsini sürətləndirir, immun sistemini gücləndirməklə yanaşı, yorğunluqdan şikayət edənlərə gümrahlıq bəxş edir.

**Bibər** həzmi nizamlayır. Yaxşı gümrahlaşdırıcıdır, qan dövranını sürətləndirir, dərini möhkəmlədir. Ət yeməklərində istifadə edilə bilər.

# Balasını facebook-da 250 dollara satdı

Boliviyada iki qadın insan alveri ittihamı ilə həbs edilib. Onlar ay yarımlıq körpə qızı 250 dollara satmaqda ittiham edilir. Milli.az show.az-a istinadən xəbər verir ki, cinayəti törətmək üçün onlar sosial şəbəkədən istifadə ediblər. Belə ki, facebookda körpənin satılması haqqında elan yerləşdiriblər.

Qeyd edilib ki, satıcı - körpənin anası fahişəliklə məşğul olan 32 yaşlı qadındır, o, uşağın atasının kim olduğunu bilmir və sadəcə, pul qazanmaq istəyib. Alıcı isə 18 yaşlı qız olub. O, köhnə sevgilisini geri qaytarmaq üçün uşağı almaq istəyib. Belə ki, o, sevgilisinə uşağın onların olduğunu deyib. Kişi baş verənləri polisə danışıb.





## 200 milyon il sonradan xəbər verəcək

NASA-nın Hubble Kosmik Teleskopu əvəzləmək üçün hazırladığı yeni teleskop ulduzların minlərlə illik keçmişindən xəbər verə bilir. James Vebb adı kosmik teleskop 2018-ci ildə kosmosda işə başlayacaq. 1990-cı ildə Discovery kosmik raketi tərəfindən teleskop Hubbledən daha böyükdür. Üstəlik, Hubblenin əldə etdiyi bilgilərin 100 dəfə çoxunu yaya bilir.

8,8 milyard dollara başa gələn teleskop dünyanın 13,8 milyard il əvvəl yaranmasına səbəb olduğu deyilən "Bing Bang"dan ("Böyük partlayış") 200 milyon il sonra haqda məlumat verə biləcək.

## Qoroskop





**QOÇ** - Ümumi vəziyyətinizin gərgin olacağını xəbərləyən ulduzlar iş yerində, eləcə də qohumluq-qonşuluq əlaqələrində mülayim olmağı tövsiyə edir. Sağlıq durumunuzu diqqətdə saxlayın.

**BUĞA** - Qarşılıqlı münasibətlər zəminində, xüsusən də sevgi davranışlarında ifrat ciddilik göstərməyin. Bu, sizə qarşı rəğbəti azalda bilər. Fiziki işlərlə az məşğul olun.

**ƏKİZLƏR** - Təxminən saat 14-ə qədər ümumi vəziyyətinizdə gərginlik müşahidə olunacaq. Göstərilən müddətdə müqəddəs ziyarətgahlara baş çəkməyə dəyər. Sonrakı saatlarda qazanmaq ehtimalınız var.

**XƏRÇƏNG** - Səhhətinizlə bağlı bəzi xoşagəlməzliklər mümkündür. Bu səbəbdən də özünüzü soyuqdan, yuxusuzluqdan və siqaretdən qorumalısınız. Aldığınız təkliflərə tələm-tələsik razılıq verməyin.

**ŞİR** - Yalnız fəaliyyət sahəsində uğurlarınız mümkündür. Yeni və maraqlı təkliflər alacağınız da istisna olunmur. Ailə və qonşuluq münasibətlərində isə mübahisəli situasiyalara cəlb oluna bilərsiniz.

**QIZ** - Ümumi çalarlarına görə olduqca uğurlu təqvimdir. Sadəcə olaraq, görəcəyiniz işlərin vaxtını düzgün bölməlisiniz. İşgüzar sövdələşmələr üçün də perspektivli ərəfədir.

**TƏRƏZİ** - Sağlamlıqla bağlı problemləriniz gözlənilir. Qida rejiminə riayət edin. Daxili orqanlarınızın halına yanın. Səhhətinizə zərərli olan fiziki və psixoloji işlərdən uzaq olun.

**ƏQRƏB** - Hər hansı xoşagəlməzliklə rastlaşacağınızı düşünməyin. Çünki Göy qübbəsi hər mənada yardımçınız olacaq. İstər işdə, istərsə də qarşılıqlı əlaqələrdə təşəbbüskarlığı əldə saxlayın.

**OXATAN** - Sürprizlər yolunuzu gözləyir. Çox güman ki, bir neçə sevindirici xəbər də eşidəcəksiniz. Üstəlik, nə vaxtdan bəri kasad olan şəxsi büdcəniz də normal hala düşməlidir.

**OĞLAQ** - Mistik gündür. Daxili səsiniz, o cümlədən ruhi qüvvələr mövcud sıxıntılarınızdan çıxış yolu göstərməyə çalışaq. Saat 16-dan sonra istənilən mübahisədən yayının.

**SUTÖKƏN** - Ulduzlar daha çox gəzinti və səyahətlər üçün uğurlu məqam olduğunu bildirir. Heç kimə yalan vəd verməyin. Sözünüzün ağası olun. Nahardan sonra uzaq səfərə çıxmaq olar.

**BALIQLAR** - Şəxsi işlərinizdə müsbət dönüş ərəfəsindəsiniz. Odur ki, hər bir qərarı çıxarmazdan əvvəl yüz yol ölçüb-biçməlisiniz. Saat 15-17 aralığını sevgi amilinə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Arvadını öldürüb facebookda paylaşdı

Amerikanın Florida ştatında arvadını öldürüb şəklini facebook sosial şəbəkəsində paylaşan Derek Media həbs edilib. Kişi polis nəzarətinə götürüldüyü zaman arvadını öldürüb şəklini paylaşdığını etiraf edib. BBC-nin xəbərinə görə, illərdir arvadının onu təhqir etdiyini və bundan bezdiyi üçün bu addımı atdığını söyləyib. Lakin məhkəmə onun özünümüdafiə üçün arvadını öldürdüyü fikrini qəbul etməyib. Çünki o, arvadını yerə sinmiş halda öldürüb. Məlumatlara görə, Media arvadına ondan ayrılarsa öldürəcəyini deyib.



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300